QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 081 (5801) **4 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Braziliya və Azərbaycan arasında tərəfdaşlığın inkişafı üçün böyük imkanlar var

*Prezident İlham Əliyev Braziliya Milli Konqresi Deputatlar Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

## May bayramı günlərində rusiyalı turistlərin MDB ölkələrinə səyahətləri reytinqində Bakı liderdir

Bax 11

May bayramı günlərində rusiyalı turistlərin MDB ölkələrinə səyahətləri reytinqində Bakı liderdir. "TurStat" analitik agentliyi xəbər verir ki, may bayramı günlərində rusiyalı turistlərin MDB və yaxın xaric ölkələrinə səyahətləri reytinqində Azərbaycana, Belarusa və Qazaxıstana turist səfərləri liderlər sırasındadır.Azərbaycanın paytaxtı Bakı bu siyahıda birinci yerdədir. MDB ölkələrindən olan turistlər şopinq və alqı-satqı məqsədilə turist səfərləri üçün də Bakını seçirlər.

## XİN: erməni KİV-lərinin separatçı rejimin "naziri"nin Argentinaya səfərinə dair məlumatları özünüaldatmadan başqa bir şey deyil

Bax 9

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi erməni KİV-lərində qondarma separatçı rejimin "xarici işlər naziri"nin Argentinada görüşlər keçirməsi ilə bağlı yayılan məlumata münasibət bildirib. AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva məsələ ilə bağlı şərhində Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimin "nümayəndəsi"nin...

## Maykl Hardi: V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Bakı Prosesi"nin çox önəmli tərkib hissəsidir

Bax 6

Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Bakı Prosesi"nin çox önəmli tərkib hissəsidir. Azərbaycan Prezidenti tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" uğurlu təşəbbüsdür və artıq 11 il ərzində bu proses dünyada baş verən aktual məsələlərin həlli yolunda müzakirələr üçün əvəzolunmaz platformadır. Bütün bunların nəticəsində dünya ictimaiyyəti müxtəlif sahələrdə mövcud problemləri, onların həlli istiqamətində görülən işləri daha yaxşı...

Zamanla ölçülməyən Dahi Şəxsiyyət ömrü



3

Leyla Əliyeva: "Əminəm ki, gənclərin dialoqa açıqlığı sülhə və rifaha gətirib çıxaracaq"



4

Əli Əhmədov: Əli İnsanovun mətbuata verdiyi müsahibələr onun siması haqqında tam təsəvvür yaradır: yalan, riyakarlıq, xəyanət



5

"Azərbaycana kənardan gələn insanların hesabına insan alveri problemi artır"



5

Xalqımız əmin-amanlıq, sülh şəraitində Ramazan ayını qarşılayır



11

Paşinyanın Medvedev problemi



12

8

"Bakı Forumu artıq unikal beynəlxalq platformaya çevrilib"



11

2350 şəhid üzrə 3413 vərəsəyə də birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edildi



14

Əli İnsanov - başına kəfən salmış qisasçı qoca...



# Braziliya və Azərbaycan arasında tərəfdaşlığın inkişafı üçün böyük imkanlar var

*Prezident İlham Əliyev Braziliya Milli Konqresi Deputatlar Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Dövlətimizin başçısı yüksək səviyyəli səfərlərin əməkdaşlığın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi və parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini dedi. Prezident İlham Əliyev Braziliya nümayəndə heyətinin böyük tərkibdə Azərbaycana səfərindən məmnunluğunu bildirərək iqtisadi, sərmayə qoyuluşu, turizm, mədəniyyət, kənd təsərrüfatı, aviasiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd etdi.

Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Maya qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Rodriqo Maya, öz növbəsində, qeyd etdi ki, yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığımızın inkişafında mühüm rol oynayır və parlamentlərarası əlaqələr xalqlarımızın bir-birini daha yaxşı tanımasına xidmət edir. Qonaq ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın olduğunu dedi.

Söhbət zamanı BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlığın önəmi qeyd olundu.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" 2000-ci il 23 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2010-cu il 24 may tarixli 272 nömrəli, "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2010-cu il 22 iyun tarixli 284 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 22 may tarixli 533 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Nazirlər Kabinetinin Aparatının iclası keçirilib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qaldırılan məsələlərlə əlaqədar Nazirlər Kabineti Aparatının iclası keçirilib.***



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazir Novruz Məmmədov 2019-cu ilin birinci rübündə ölkəmizin əldə etdiyi uğurlu nəticələrdən, aparılan iqtisadi islahatlardan, yeniliklərdən bəhs edib və Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi istiqamət və hədəflərin hökumət üçün əsas meyar olduğunu bildirib. Baş Nazir ilin birinci rübündə aparılan ciddi sosial əhəmiyyətli islahatların, verilən qərarların Azərbaycan ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirildiyini, ölkəmizin həm regional, həm də dünya miqyasında reytinqinin daha da yüksəlməsinə səbəb olduğunu vurğulayıb. Xüsusən də, dövlətimizin başçısının əhalinin aztəminatlı təbəqəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemlərini daim diqqətdə saxlaması Nazirlər Kabineti üçün də prioritet məsələlərdən biridir. Bununla yanaşı, vergi və gömrük sahələrində institusional dəyişikliklər, şəffaflıq və sağlamlaşdırma tədbirləri də müsbət dəyişikliklərlə nəticələnib. Ölkədə bütün iqtisadi göstəricilər üzrə davamlı inkişaf müşahidə olunur, icra edilən böyük investisiya və infrastruktur layihələri iqtisadiyyata öz töhfəsini verir. İlin birinci rübündə Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR karbamid" zavodunun istifadəyə verilməsi, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi, o cümlədən ölkədə aqrar sahənin şaxələndirilməsi və dayanıqlı inkişafı istiqamətində atılan addımlar dövlətimizin başçısının apardığı məqsədyönlü siyasətin əməli nəticələridir.

İclasda sosial-iqtisadi inkişafın nəticələrinə dair ətraflı fikir mübadiləsi aparıldı. Baş Nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar Nazirlər Kabineti tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı Aparatın aidiyyəti şöbələrinə müvafiq göstərişlər verdi.

# Zamanla ölçülməyən Dahi Şəxsiyyət ömrü



***Azərbaycanın ictimai-siyasi, mədəni həyatında uğurları ilə əbədiləşən Ulu Öndər Heydər Əliyev xalqın düşüncə tərzində, oyanışında müstəsna rol oynamış Siyasi Liderdir. Dahi Şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu siyasəti nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Heydər Əliyev zamanla ölçülməyən bir ömür yaşadı. Bu ömrün arxasında Azərbaycan, Azərbaycana xidmət, Azərbaycanın sivilizasiyası dayanır. Dahi Öndər Heydər Əliyev şəxsiyyət, siyasi xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq, Azərbaycan tarixində əsrin Lideri olduğunu təsdiqlədi. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxardı.***

Bu gün Onun Azərbaycana rəhbərlik etdiyi dövrü vərəqlədikcə, Ulu Öndər Heydər Əliyev zəkasını, düşüncəsini, müdrikliyini, böyüklüyünü bir daha hiss edir, Ümummilli Liderin respublikamız və xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi oluruq. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanıldı. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq oldu. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edildi.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Ulu Öndər Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli mübarizə aparırdı.

Tarixən qısa bir dövr ərzində, bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV QÜDRƏTLİ DÖVLƏT MODELİ KONSEPSİYASINI DA HƏYATA KEÇİRDİ

Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. Bütün bu və ya digər hadisələr göstərir ki, Azərbaycanın dünyanın siyasi xəritəsindən silinmək ehtimalı olduğu zamanda xalq çıxış yolu axtararaq mövcud vəziyyəti nizama salmaq yollarını araşdırdı. Bütün diqqət Ulu Öndər Heydər Əliyevə yönəlmişdi. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Azərbaycan demokratik-hüquqi və dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Milli neft strategiyasının əsası qoyuldu. "Əsrin müqaviləsi" imzalandı. Neft strategiyasının beynəlxalq layihələrin və iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi ölkəmizdə bu tükənməz sərvətdən əldə olunan gəlirin qat-qat artırılmasına rəvac verdi.

## BU GÜN QÜDRƏTLİ AZƏRBAYCAN DAHİ ŞƏXSİYYƏTİN MÜƏYYƏNLƏŞDİRDİYİ YOLLA İNKİŞAF EDİR

Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır.

Bu yol Dahi Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir və uğurlar qazanır. Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, Onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla irəliyə aparacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşına gələcəyə böyük inam və əminlik yaradır. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin"- deyən Prezident İlham Əliyev imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini və insanların rifahının yüksəlməsini təmin edib.

***ZÜMRÜD BAYRAMOVA***

# Leyla Əliyeva: “Əminəm ki, gənclərin dialoqa açıqlığı sülhə və rifaha gətirib çıxaracaq”








Mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Gənclər sülh naminə: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması” mövzusunda ikinci plenar sessiya keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sessiyada iştirak edib. BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosun moderatorluğu ilə keçirilən sessiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxış etdi. Xanım Leyla Əliyeva öz çıxışında qeyd edib ki, bu platforma sülh şəraitində yaşamanı daim təbliğ edib:

“Dünyamızı daha yaxşı etmək üçün bir çox ölkələrdən insanları burada bir arada görmək olduqca xoşdur. Bu gün bizim hamımızın burada bir araya gəlməyimizin səbəbi zəngin fərqliliklər, mədəni müxtəlifliklər, bəşəri dəyərlər və anlaşmadır.

Mən sülhün və müxtəlifliyin təbliğində məhz gənclərin rolunu xüsusi qeyd etmək istərdim. Gənclərin çoxsaylı şəbəkələr yaratmaq, özü də bütün mümkün sərhədləri keçmək kimi gözəl qabiliyyətləri var. Sülh və harmoniya uğrunda mübarizədə gənclərə əksər hallarda ümidsiz romantiklər kimi baxırlar. Amma deyərdim ki, bu, qeyri-səmimi yanaşmadır. Əminəm ki, gənclərin dialoqa açıqlığı sülhə və rifaha gətirib çıxaracaq.

Əziz dostlar, təhsil yalnız bilik və peşəkar inkişaf bacarıqlarının qazanılması deyil. Həmçinin mənəvi təhsil də bunlar qədər vacibdir. Bu baxımdan ailələr və məktəblər iki mühüm təsisatdır. Əməkdaşlıq, anlaşma və bütün bəşəriyyətə rəğbət və hörmət dəyərləri aşılayan ailə uşaqları sülhpərvər dünyaya hazırlamaqda mühüm rol oynayır. Bunlar olmayanda boşluğu nifrət və dözümsüzlük doldurur. Eyni zamanda, gənclərə doğru-düzgün təhsil vermək onların tam potensialının reallaşması üçün çox vacib bir amildir. Çünki gənclərin tez öyrənmək, eləcə də prosesləri izləmək, çoxsaylı məlumatları əldə etmək kimi bacarıqları var. Həmçinin onlar ətraf mühitin mühafizə olunması və təbiətin bizə bəxş etdiyi nemətlər barədə çox məlumatlıdırlar.

Bununla belə gənclərə həddindən artıq təzyiq göstərilməməlidir. Bəzən ən intellektli gənclər belə tam xoşbəxt olmurlar. Ona görə də biz gənclərə dəstək göstərərək bundan da yaxşı bir dünya yaratmağa nail olmalıyıq ki, onlar gözəl planetdə və harmoniya içərisində yaşamaqdan daha çox zövq alsınlar. Yüksək texnologiyanın inkişafı sayəsində biz fikirlərimizi daha sürətlə ifadə edirik. Bizim fikirlərimiz ən güclü enerjilərdəndir, hətta işıq sürətindən də sürətlidir. Dünya bu potensiala investisiya yatırmalı və əmin olmalıdır ki, gənc nəslin inkişaf üçün bütün zəruri imkanları var. Bu gün dünyada gənclərin sayı daha çoxdur. İdeyalar və yüksəlişlər bütün planetin gələcəyini dəyişə bilər. Amma əfsuslar olsun ki, 617 milyona yaxın gənc hələ də riyazi və ədəbi biliklərdən məhrumdur. Bu, o deməkdir ki, biz çox dəyərli bir potensialı itiririk. Məhz gənclər tərəqqinin təcəssümüdür. Hər bir yeni nəsil əvvəlkindən daha mütərəqqi, humanist, həssas, tolerant və açıqfikirlidir. Bu isə tarixin təbii təkamülüdür. Gəlin gənclərə öz enerjilərini qlobal problemlərin həllinə yönəltməkdə kömək edək, gəlin hamılıqla onlara dəstək olaq. Vaxt həyatımızın ən mühüm resursudur. Gəlin onu israf etməyək. Sözlər daim əməllə müşayiət olunmalıdır. Hər bir bəşər övladına verilmiş müqəddəs hədiyyə olan intuisiyamızı unutmamalıyıq. Xalqların sülhsevər və dayanıqlı cəmiyyət formalaşdırmasında hər bir kəs fərqlilik yarada bilər. Beləliklə də onlar özlərini dəyişməklə bəşəriyyətə olan baxışlarını müsbət mənada dəyişə bilərlər.

Əziz dostlar, İsa peyğəmbərin dediyi kimi, gəlin uşaqlardan öyrənək. Uşaqlar sözü birbaşa deməyə və yaxşı işlər görməyə can atırlar. Maddiyyat heç də uğur, müvəffəqiyyət demək deyil. Həyatda ən vacib olan sevgidir, sağlamlıqdır, xoşbəxtlikdir, birlikdir, anlaşmaqdır və bir-birini təmənnasız şəkildə dəstəkləməkdir. Bütün bunları hamımıza diləyirəm.”

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos dedi ki, bu plenar sessiyada müzakirəyə çıxarılan məsələlərə yeni baxışla yanaşılacaq. Sessiyanı mənfi düşüncələri dəyişmək üçün gözəl fürsət adlandıran BMT təmsilçisi gəncləri ekstremizm, nifrət kimi amillərdən qorumağın vacibliyini vurğuladı.

Sessiyadakı müzakirələr cəmiyyətdə gənclərin rolu, təhsil, sülh quruculuğu və dinlərarası dialoq mövzularını əhatə etdi. Somali Stabilləşmə Təşəbbüsünün biliyin idarə olunması və strateji kommunikasiyalar üzrə rəsmisi Nacma Əhməd-Hüseyn ölkəsində müxtəlif etnik qrupların bir araya gəlməsi üçün həyata keçirilən layihələrdən danışdı. Sənədli filmlər rejissoru Roda Siad reallaşdırdığı layihələr vasitəsilə miqrasiya böhranı, qaçqınların və digər ölkələrdə sığınacaq axtaranların taleyi, onların qarşılaşdığı çətinlikləri barədə cəmiyyətə məlumatların verilməsinin əhəmiyyətinə toxundu. Erbildə “Malteser İnternational”un ictimai əlaqələr üzrə məsləhətçisi Sara Markieviç İraqdakı icmalar arasında qeyri-sabit vəziyyət barədə məlumat verərək bu istiqamətdə dinlərarası dialoqun roluna nəzər saldı. Zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssis Selim Çerkau terrorizmə görə məhkum edilmiş məhbuslar arasında maarifləndirmə işlərinin aparılması, onların cəmiyyətə adaptasiyası və baxışlarının dəyişməsi istiqamətlərində həyata keçirilən layihələrdən bəhs etdi. Pakistan Gənclər Alyansının “Peace Rickshaws” layihəsinin təsisçisi Syed Ali Abbas Zaidi zorakı ekstremizmə qarşı layihə və onun nəticələri ilə bağlı fikirlərini çatdırdı, bu layihənin 15 min insanı əhatə etdiyini söylədi. “Efemerides”in təsisçisi Fatoumata Kebe gənclərə imkanlar yaradılması, problemlərin həllində onlara səlahiyyət verilməsi istiqamətində həyata keçirilən layihəsindən danışdı. Qeyd etdi ki, Malidə yalnız 30 faiz qızların məktəbə getmək imkanı var və onun rəhbərlik etdiyi təşkilat belə ölkələrdə müxtəlif fənlər üzrə dərslər təşkil edir. Mərkəzi Avropa Universitetinin beynəlxalq münasibətlər üzrə magistr namizədi Corc Antonio Şavez Mazuelos, “Sri Lanka Unites” Gənclər Hərəkatının milli direktoru Liyanaaraççig Neluni Tillekeratne, “Emkan Education”nın məktəb və məzmun üzrə direktoru və həmtəsisçisi Sara Zaini, BMT-nin Gənclər Siyasəti üzrə mütəxəssisi Ansa Qliqa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru İmam Muhammad Nurayn Aşafa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru Pastor Ceyms Movel Vuye, “Burson, Cohn and Wolf”un idman hesabları üzrə baş icraçısı Nevena Vukasinovic, Lvov şəhərinin merinin dini məsələlər üzrə müşaviri Taras Dzyubanski gənclərin fəallığı üçün proqramların əhəmiyyətini, zorakılığa, terrorizmə məruz qalan gənclərin təhsil almasında təqaüd proqramlarının faydasını qeyd etdilər. Sonda sessiya iştirakçılarının sualları cavablandırıldı.

# Əli Əhmədov: Əli İnsanovun mətbuata verdiyi müsahibələr onun siması haqqında tam təsəvvür yaradır: yalan, riyakarlıq, xəyanət



"Azərbaycan Prezidentinin əfvi nəticəsində azadlığa çıxan Əli İnsanovun mətbuata verdiyi müsahibələr onun siması və insani keyfiyyətləri haqqında tam təsəvvür yaradır: yalan, riyakarlıq, xəyanət. Onun ümummilli lider Heydər Əliyev yoluna xəyanəti artıq çoxdan bəllidir. Dünən "Amerikanın səsi" radiosuna verdiyi müsahibəsində isə Əli İnsanovun xəyanəti yeni formada və səviyyədə özünü göstərdi. Keçmiş nazir indi separatçı erməni ideoloqu kimi özünü təqdim və təsdiq etməyə çalışır. Bu isə milli xəyanətdən başqa bir şey deyildir. Erməni separatçılarının ideoloji tezis kimi uydurduğu, guya ermənilərin Azərbaycanda mənəvi-iqtisadlarının qeyri-mümkün olması haqqında əsassız şüarın Əli İnsanov tərəfindən dəstəklənməsinə ayrı cür ad vermək mümkün deyil. Görünür, Azərbaycan xalqının dəstəyini qazanmaq xülyasının boşa çıxmasından sonra o, ermənilərin, Qərbdəki erməni lobbisinin dəstəyinə arxalanmaq fikrinə düşüb. Burada qeyri-ixtiyari nazir olarkən İrəvana səfəri zamanı ermənilərlə qol qaldırıb oynaması haqqında vaxtilə ağızdolusu danışması yada düşür. Deməli, heç nə təsadüfən baş vermir. Hər şeyin bir səbəbi, bir izahı var". Bu fikirlərin müəllifi Azərbaycan Respublikası Baş nazirinin mavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovdur.

Əli Əhmədov özünün rəsmi facebook səhifəsində yayımladığı məqaləsində daha sonra bildirir: "Əli İnsanovun simasının digər xarakterik cəhəti olan riyakarlıq isə ən riyakar insanlarda belə qibtə doğura bilər. On ildən çox nazir kimi çalışdığı hakimiyyəti "diktatura" adlandırması nə məntiqə, nə insanlığa sığır. Nazir olarkən bəlağətlə hakimiyyəti tərifləyən, müxalifət nümayəndələrini isə təhqir edən Əli İnsanov indi tam əksini edir. Soruşmaq lazımdır: Əli İnsanov, sənin hansı simana inanaq? Vaxtilə müxalifəti ən ağır sözlərlə təhqir edərkən gördüyümüz simana, yoxsa indi əvvələr sədaqətlə qulluq etdiyini dediyin hakimiyyətə böhtan atan sifətinə. Yəqin ən düzgün cavab bu olar ki, heç birinə. Buna isə simasızlıq deyirlər".

YAP-ın Sədr müavini Əli Əhmədov öz paylaşımında daha sonra bildirir: "Əli İnsanov həbsdə olduğu müddətdə Azərbaycan inanılmaz dərəcədə dəyişib, gözəlləşib, müasirləşib. İnsanlar indi daha yaxşı yaşayırlar. Düşünürdüm ki, azadlığa çıxandan sonra bu dəyişiklikləri görən insan özü də dəyişməyə bilməz. Ancaq görünən budur ki, Əli İnsanova inanmaq mümkün deyil. Onun islah olunduğunu da düşünmək sadəlövhlük olardı. Azərbaycan xalqı ölkədəki sabitliyi, təhlükəsizliyi, inkişafı yüksək qiymətləndir. İnsanlar ölkədə qarşıdurma yaradaraq inkişafa, əmin-amanlığa əngəl törətməyə çalışanları lənətləyir və onlara xalq-iqtidar birliyi ilə cavab verir".

# "Azərbaycana kənardan gələn insanların hesabına insan alveri problemi artır"



"Azərbaycana kənardan gələn insanların hesabına insan alveri problemi artır. İnsan orqanlarının qanunsuz satılması dünyanın hər yerində var, Azərbaycanda bunun qarşısı alınır". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin dünən keçirilən plenar iclasında çıxış edərkən deyib. O bildirib ki, bu gün on minlərlə insan Aralıq dənizində, Qırmızı dənizdə itir, onlar insan alverinin qurbanına çevrilir: "Ərəbistan yarımadasında da çoxsaylı insanlar insan alverinin qurbanına çevrilir. Azərbaycan Avropa və Asiyanın qovşağında yerləşir. Çalışmalıyıq ki, gələcəkdə belə hallar Azərbaycanda olmasın. Biz insan alverinə qarşı hesabatın formasına da yenidən baxmalıyıq. Dövlət Miqrasiya Komitəsi də bu hesabatların təqdim edilməsində iştirak etməlidir".

# Milli Məclisdə insan alverinə qarşı mübarizə üzrə milli əlaqələndiricinin illik məlumatı dinlənilib

Milli Məclisin mayın 3-də keçirilən plenar iclasında insan alverinə qarşı mübarizə üzrə milli əlaqələndiricinin illik məlumatı dinlənilib. Məlumatı milli əlaqələndirici, daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazov təqdim edib.



Vilayət Eyvazov bildirib ki, transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərindən olan insan alveri dünyada, eləcə də hər bir ölkədə sabitliyin əsaslarına, qanunun aliliyinə təhdid yaradan və insan hüquqlarını pozan əməllərdəndir. Eyni zamanda, bu sahədə fəaliyyət göstərən kriminal qrupların yüksək təşkilatlanma səviyyəsi və miqyasının sürətlə genişlənməsi baxımından XXI əsrin kəskin problemlərindən olaraq daim dünya birliyinin və nüfuzlu beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatının 2019-cu ildə yaydığı növbəti qlobal hesabatda dünyanın əksər ölkələrində insan alveri cinayətlərinin sayının artması, bu əməllərin cəzasızlıq mühitinin hökm sürdüyü silahlı münaqişə zonalarında daha geniş yayılması, onun qurbanları arasında qadınların və azyaşlı qızların xüsusi çəkisinin yüksək - təxminən 70 faiz həddində olması qeyd edilir. Aşkarlanmış cinayətlərin isə 59 faizini cinsi istismar, 34 faizini məcburi əmək faktlarının təşkil etməsi, ayrı-ayrı dövlətlərdə insan alverinin qanunsuz transplantasiya, cinayətkar fəaliyyətə cəlbetmə və övladlığa götürmə yolu ilə törədilməsi kimi növləri xüsusi vurğulanır. Bununla belə, insan alverinin qarşısının alınması, qurbanların hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər bir an belə səngiməyib. Hesabatda təkcə ötən il 17 min 880 insan alveri cinayətinin, 100 mindən çox qurbanın müəyyən edilməsi, təqsirli şəxslər barəsində məhkəmələr tərəfindən 7045 ittiham hökmünün çıxarılması əksini tapıb.

Qeyd olunub ki, insan alverinə qarşı mübarizənin kompleks və sistemli aparıldığı ölkələrdən olan Azərbaycan Respublikasında da sayca üçüncü Milli Fəaliyyət Planı ilə qarşıya qoyulmuş vəzifələr aidiyyəti dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birgə ardıcıllıqla və tam yerinə yetirilib. Bu sahədə qlobal çağırışlara cavab verən qanunvericilik bazasının formalaşdırılması üzrə fəaliyyət çərçivəsində "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununda insan alverinin qurbanı olmuş şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququ, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunda isə yeniyetmələrin ictimai mənəviyyata, milli və əxlaqi dəyərlərə zidd materiallardan müdafiəsi mexanizmləri təsbit olunub. Dövlət başçısının "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci ildə imzaladığı Fərmana əsasən "DOST" mərkəzlərində göstərilən sosial xidmətlər sırasında insan alveri qurbanlarının reabilitasiyasının təşkil edilməsi ilə bağlı tədbirlər də nəzərdə tutulub.

Maarifləndirmə tədbirlərində paytaxtın, həmçinin respublikanın şəhər və rayonlarının icra hakimiyyətləri yaxından iştirak ediblər. Ölkəyə gələn və ölkədən gedən şəxslərin insan alveri təhlükəsi barədə məlumatlandırılması üzrə işlər də davamlı olub, gömrük keçid və sərhəd-nəzarət məntəqələrində minlərlə sərnişinə maarifləndirici vəsait paylanıb. Hüquq-mühafizə orqanları əməkdaşlarının peşəkar hazırlığı işinə yeni meyarlarla yanaşılmasının, təlim-təhsil sisteminin səmərəliliyinin artırılmasının zəruriliyi nəzərə alınaraq, insan alverinə qarşı mübarizəni və sosial reabilitasiyanı həyata keçirən dövlət orqanlarının və vətəndaş cəmiyyətinin nümayəndələri üçün tədris kursları təşkil olunub. Xüsusi polis qurumunun əməkdaşları xarici dövlətlərdə və ölkəmizdə keçirilmiş 51 konfrans, seminar və təlimlərdə iştirak edib, beynəlxalq treninqlərə təlimçi qismində cəlb olunublar. Hesabat dövründə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın gücləndirilməsi üzrə mühüm vəzifələrin icrası da səmərəli olub.

Daxili İşlər Nazirliyinin 40-a yaxın ölkənin aidiyyəti dövlət strukturları ilə imzaladığı 100-dən çox müqavilə insan alverinin qurbanı olmuş Azərbaycan vətəndaşlarının digər dövlətlərdə yerinin operativ müəyyən edilməsində, bu cinayətləri törədənlər haqqında məlumatların toplanılmasında, birgə tədbirlərin keçirilməsində real nəticələr verməkdədir. Bununla yanaşı, bir sıra mötəbər beynəlxalq qurumlar, o cümlədən BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq, Beynəlxalq Miqrasiya və digər təşkilatlarla həyata keçirilən birgə işlərin böyük bir hissəsi bilavasitə insan alveri probleminə və onun həlli yollarına həsr olunub. Məcburi əməyin qarşısının alınması, bu hüquqazidd əməllərə şərait yaradan halların aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələr də planlı şəkildə yerinə yetirilib.

Ölkədə olma və yaşama qaydalarını pozan 19 min 210 əcnəbinin inzibati məsuliyyətə cəlb edilməsi və onlardan 3740 nəfərinin respublikanın hüdudlarından çıxarılması da məcburi əməyin profilaktikasında mühüm əhəmiyyət kəsb edib. Uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilmiş tədbirlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq müəyyən olunub. Aparılmış yoxlamalarla həmin uşaqların insan alverinin və ya məcburi əməyin qurbanı olması təsdiqlənməyib. Lakin bəzi mövcud problemlərin aradan qaldırılması, xüsusən uşaqlara qayğı və yardımın göstərilməsinin zəruriliyi baxımından yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 760 material göndərilib, övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 207 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb. Vilayət Eyvazov deyib ki, Beynəlxalq əmək Təşkilatının hesablamalarına əsasən, bu gün dünyada müasir köləliyin qurbanı olan 40,3 milyon insan var. Onlardan 16 milyonu ev qulluğu, tikinti sektoru, kənd təsərrüfatı sahələrində məcburi əməyə, 4,8 milyonu cinsi istismara məruz qalanlardır. Hər dördüncü qurban isə azyaşlı oğlan və qızlardır. Qlobal problemlərdən birinə çevrilməsi nəzərə alınaraq, əksər ölkələrdə insan alverinin aradan qaldırılması istiqamətində səylərin artırılmasına, müvafiq hüquqazidd əməllərə görə cəza tədbirlərinin sərtləşdirilməsinə, qurbanların qayğı ilə əhatə olunmasına yönəlmiş kompleks addımlar atılır.

Azərbaycanda da dövlətimizin güclü siyasi iradəsi sayəsində insan alverinə qarşı mübarizədə dünya standartlarına uyğun institusional islahatlar aparılıb, zəruri təşkilati və praktiki tədbirlər həyata keçirilib.

İnsan alverinin doğurduğu təhlükələr barədə ictimaiyyətin məlumatlandırılması işində vətəndaş cəmiyyəti nümayəndələrinin və kütləvi informasiya vasitələrinin iştirakı ilə respublikanın bütün şəhər və rayonlarında 237 mədəni-kütləvi tədbir, o cümlədən çoxsaylı treninq və seminarlar keçirilib. Profilaktik iş, demək olar ki, əksər məktəbləri, lisey, kollec və uşaq evlərini əhatə edib.

Milli Fəaliyyət Planının həyata keçirilməsi üçün donorlar və göstərilən yardımın istifadə ediləcəyi sahələr də müəyyən olunub, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən 53 layihə maliyyələşdirilərək bu məqsədlər üçün 412 min manat vəsait xərclənib. İnsan alverinə qarşı mübarizədə xüsusilə fərqlənən 65 qeyri-hökumət təşkilatına Daxili İşlər Nazirliyi tərəfindən də 60 min manata yaxın maliyyə yardımları edilib. Ötən 5 ildə qeydə alınmış 755 insan alveri və məcburi əmək cinayəti üzrə 169 şəxs cinayət məsuliyyətinə cəlb olunub.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə beynəlxalq cinayətkar şəbəkənin ölkəmizdə fəaliyyət göstərməsinin qarşısı alınıb, 2 mütəşəkkil dəstə, 58 cinayətkar qrup zərərsizləşdirilib. Müəyyən edilmiş 356 qurbandan 312-si təhlükəsiz sığınacaqlara yerləşdirilib və hər birinə birdəfəlik müavinət, 280 qurbana isə Kömək Fondundan yardımlar verilib. Daha 124 nəfər işlə təmin edilib, 188 nəfər peşə kurslarına cəlb olunub və onların bir çoxu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Yardım Mərkəzlərində qeydiyyata götürülüb. Səhiyyə Nazirliyi tərəfindən 706 insan alveri qurbanına və potensial qurbana tibbi yardım göstərilib. Bundan əlavə, Planda xüsusi polis qurumunun maddi-texniki təminatının gücləndirilməsi, qurbanların və potensial qurbanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün lazımi şəraitin yaradılması, onlara xidmət göstərən sığınacaq və yardım mərkəzlərinin potensialının artırılması, insan alverinə qarşı mübarizə sahəsində tədqiqatların, elmi araşdırmaların aparılması və s. mühüm məsələlər əksini tapıb. Bu konseptual sənədin icrasına bütövlükdə 36 dövlət orqanının, yerli icra hakimiyyətlərinin, aidiyyəti qeyri-hökumət təşkilatlarının cəlb edilməsi nəzərdə tutulur. Sənəd müzakirələrdən sonra qəbul olunub.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

4 may 2019-cu il

# İsa Həbibbəyli: “Ölkəmizdə dialoq üçün geniş əsaslar və tarixi ənənələr var”

“Azərbaycan dövləti hər zaman mədəniyyətlərarası dialoqun inkişafında aparıcılıq mövqeyini ortaya qoyub və əsas təşəbbüskar kimi çıxış edib”. Bu fikirləri millət vəkili, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli Bakıda “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işə başlamasını şərh edərkən deyib. Onun sözlərinə görə, bu xüsusda ilkin faktor cəmiyyətlərin multikultural dəyərlərə önəm verməsi, bu yöndə fəaliyyət göstərməsidir: “Bu baxımdan, qeyd etmək istərdim ki, ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə qarşı ən güclü mübarizə üsulu məhz multikulturalizm və tolerantlıq mühitinin yaradılmasıdır.” Akademik həmçinin qeyd edib ki, ölkəmizdə bu istiqamətdə davamlı işlər aparılır: “Multikulturalizmin geniş mənada mahiyyəti ondan ibarətdir ki, dövlət cəmiyyətdəki müxtəlif və bir-birindən fərqli mədəniyyətlərin daşıyıcıları olan fərdlər, yaxud sosial qruplar arasında fərq qoymur, onların heç birini digərindən üstün, yaxud aşağı hesab etmir və bütün mədəniyyət daşıyıcılarına bərabər hüquqlar tanıyır. Başqa sözlə desək, dövlət cəmiyyətdə olan mədəni dəyərlərə birbaşa müdaxilə etmir və dövlət tərəfindən əvvəlcədən formalaşdırılmış mədəni dəyərlər sistemini cəmiyyətə yeritmir. Bu məsələdə sosial subyektlərə bir növ sərbəstlik tanıyır. Prezident İlham Əliyevin yürütdüyü siyasətin tərkib hissələrindən biri də bu kimi önəmli məsələlərdir ki, Azərbaycan bütün dünyaya öz yüksək dəyərlərini təqdim edir”.

İsa Həbibbəyli Bakıda belə bir Forumun keçirilməsinin önəmli olduğunu və yüksək qiymətləndirildiyini bildirib: “Bu, artıq xoş bir ənənə şəklini alıb. Burada müzakirə olunan məsələlər olduqca mühümdür. Multikulturalizm məsələsi ətrafında müzakirələr də çox maraqlı mövzuları əhatə edir. Həmçinin, bu tədbirdə, elmin, mədəniyyətin, ictimai həyatın müxtəlif sahələrində çalışan təcrübəli insanlar bir-biri ilə görüşərək fikir mübadiləsi aparmağa, öz təcrübələrini bölüşməyə imkan taparlar. Məsələ bundadır ki, dünyada sivilizasiyalararası konfliktlər gündən-günə daha da ağırlaşır və onların müzakirə edilərək həllinin tapılması aktual məsələyə çevrilir. Belə problemlərin həllində isə dövlətlərarası dialoqun rolu böyükdür. Mən deyərdim ki, sivilizasiyaları, müxtəlif xalqları bir araya gətirən belə forumların Azərbaycanda keçirilməsi ölkə üçün böyük uğurdur”.

Millət vəkili Azərbaycanın Bakı Beynəlxalq Humanitar Forumu kimi tədbirlərə ev sahibliyi etməsini dünyada sülh və sabitlik yaradılması işinə mühüm töhfələr verdiyini vurğulayıb: “Biz artıq yaxşı bilirik ki, Azərbaycanda əsrlər boyu müxtəlif millətlərin nümayəndələri dostluq və qardaşlıq şəraitində yaşayıblar. Ölkə dünyada özünün tolerantlığı ilə ad qazanıb. Habelə, Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti sayəsində Bakı mədəniyyətlər, sivilizasiyalar və dinlər arasında dialoqun mərkəzinə çevrilib və bu baxımdan Azərbaycan şanslı ölkədir. Çünki, ölkəmizdə dialoq üçün geniş əsaslar və tarixi ənənələr var ki, bu da bizə öz imkanlarımızı genişləndirmək, dünyada sülhün təbliğatçısı qismində çıxış etmək üçün əlavə imkanlar verir. Baxmayaraq ki, Azərbaycan müharibə şəraitindədir, torpaqları işğal olunub, lakin dünya ölkəmizin mədəni dəyərlərə sahib çıxdığını, bütün addımlarında dialoq prinsiplərini gözlədiyini görür”.

İsa Həbibbəyli onu da xatırladıb ki, hələ 2008-ci ildə “Bakı prosesi”nin əsası qoyulmuşdur: “Bakı prosesi həmin ildə Bakıda keçirilmiş Avropa Şurası mədəniyyət nazirlərinin toplantısında İslam Əməkdaşlıq Təşkilatının nümayəndələrinin iştirakı ilə başlayıb.



Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu müsbət təcrübə artıq ona gətirib çıxardı ki, Bakı prosesi başlandı. Ondan sonrakı dövrdə digər beynəlxalq tədbirlər keçirildi və nəhayət, Beynəlxalq Bakı Forumu artıq bütün dünyaya sülh, tolerantlıq və multikultural çağırışları edir. Əlbəttə ki, bu bizim dövlətin, Cənab Prezident İlham Əliyevin yürütdüyü uğurlu, məqsədyönlü və qətiyyətli siyasətinin məntiqi nəticəsidir”.

***Rəfiqə KAMALQIZI***

# Qurbanıolduqlarıma bir neçə cümləlik ismarıc

*Ya da ay maşınlar, qəbristanlığa gedəndə heç olmasa kişini rahat buraxın...*

**Qurbanıolduqlarım!**



İllərdir, Azərbaycan siyasətinin labirintlərində azıb qalan müxalifətin çürük təfəkkürlü simalarını görməkdən gözlərimizin pis günə qalmağından yaza-yaza üzülüb bir para qalmışdıq ki, qurbanıolduqlarım səsimizi eşitdi və bizə yeni bir müxalif sima göndərdi. Göndərdi e, göndərməyinə, o müxalif simaya baxanda dedik, qurbanıolduqlarımız, siz bizi başa düşübsünüz e, amma elə bil bir balaca səhv başa düşübsünüz axı... Biz binəva bəndələr sizə Əli Kərimlidən, Arif Hacıludan, Rəhim Qazıyevdən, nə bilim, İsgəndər Həmidovdan bezdiyimizi demişdik və səndən təvəqqə etmişdik ki, bizə üzü üzlər görməyən müxalifət göndərəsən. Day demədik ki, vəzifədə olanda daxili və xarici siyasi kursunu dəstəklədiyini dediyi bir iqtidarı həbsdən çıxandan sonra ağ yuyub qara sərərək siyasi kursu bir dəfəlik dönük çıxan bir siyasi buqələmunu bizə təzə müxalifət kimi sırıyasan. İncimə, ay qurbanıolduğum, belə lap itin, pişiyin olaq, day bir belə yox da... Yenə Əli Kərimli zad ortayaşlıdır, yenə sosial mediada 100-dən çox saxta profil işlədir, nə bilim arada canlı yayıma-zada çıxır, güldürüb eynimizi açır. And olsun adınıza, bu durub sosial mediada canlı yayım açmaq üçün videokamera necə qoymağı öyrənmə eşqinə düşsə, gərək bir on il qızıl vaxtını sərf eləsin... O da nə gəzər?! Bizdəki radikal müxalifətin sözü olmasın, kişi elə özü votvotdu...





**Qurbanıolduqlarım!**

Bu boyda haqq-hesabın içərisində, dünyanın yenidən nizama salındığı bir dövrdə, hətta ideoloqların belə öz ideoloji xəttlərini tərk edib yeni geosiyasi vəziyyətə uyğun doktrinalar formalaşdırdığı bir dövrdə əl açıb yalvarırdıq ki, milli maraqlar konteksində Azərbaycan iqtidarı ilə birgə fəaliyyət göstərəcək, ölkənin gələcəyi naminə bir addım iqtidar atanda on addım atacaq bir müxalifət düşsün qismətimizə. Konsepsiyalar hazırlasın, təkliflər paketlərinin üstündə işləsin, bütün parametrləri ilə sözdə deyil, əməli işlə vətəndaşın dərdlərinə şərik olsun. Dünya siyasətinə baxanda müasir çalarlarla onu alsın, ölkəmizə təqdim etsin. Amma olmadı. Biz saydığımızı saydıq, o da bütün rəhmətə gedən dünya siyasi liderlərini. Çörçildən başlayıb Harri Trumeni yad elədi, gördü hirsi soyumur keçdi Reyqanla Tetçerə. Amma sənin bizə müxalifət qismində göndərdiyin müəllim əməlli - başlı qocalıb, gözləri zəifləyib, fəhmi də korşalıb. Soruşanda ki, ay ağsaqqal, gəlirsən də siyasi fəaliyyətlə məşğul olmağa, özü də özündən başqa bütün Əliyevçiləri “saxta Əliyevçi” adlandırırsan və iddialısan ki, sən hətta milli şuranı da, milsiz şuranı da özünə tabe etmək gücündə olduğunu iddia edirsən, bəs yaxşı, ay müəllim, sən nə etmək fikrindəsən, nə ilə fərqlənəcəksən bu biri müxalifətçilərdən?! Cavabında müəllim deyir ki, Azərbaycan insan hüquq və azadlıqları, vətəndaşların rifahı, filan, behməkan! Ay sizə mən qurban olum, bəs bunu göndərəndə texniki parametrlərinə yeni nəsə yerləşdirərdiniz ki, yeni nəsə deyəydi. Bax, mən deyiləm sizsiniz, siz olsanız müəllimin dediklərini oxuyanda nə düşünərdiniz?! Hə, ay sağ olun! Elə mən də onu deyirəm! Vallah, billah, atalarımızın ruhu mən də onu deyirəm. Onsuz da bunu 25 ildir ölkədə radikal müxalifət, antimilli ünsürlər xaricidəki mərkəzlərə danos yazanda qeyd edirlər də. Artıq Azərbaycanda müəyyən problemlərin həlli üçün hər keçən gün özünüz də şahidsiniz ki, ciddi addımlar atılır. Müəllimin dediyi kimi, azərbaycanlılar dolanışıq ucbatından dünyaya səpələnməyiblər, ölkəmiz diktatura ölkəsi isə heç deyil. Bəs elə isə deyişən Azərbaycana müəllim nə verəcək, ay başınıza dönüm?!

**Qurbanıolduqlarım!**

Sonda sizdən xudmani bir təvəqqəm var. Müəllimə narahatlıq verən gözəgörünməz qüvvələrinizi göndərin getsinlər işlərinin ardıyca. Ay maşınlar, siz də qəbristanlığa gedəndə heç olmasa kişini rahat buraxın... düşər düşməzi olar sonra, Azərbaycan müxalifəti lidersiz qalar, qulaqlara qurğuşun!...

## Maykl Hardi: V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu “Bakı Prosesi”nin çox önəmli tərkib hissəsidir



Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu “Bakı Prosesi”nin çox önəmli tərkib hissəsidir. Azərbaycan Prezidenti tərəfindən 2008-ci ildə irəli sürülən “Bakı Prosesi” uğurlu təşəbbüsdür və artıq 11 il ərzində bu proses dünyada baş verən aktual məsələlərin həlli yolunda müzakirələr üçün əvəzolunmaz platformadır. Bütün bunların nəticəsində dünya ictimaiyyəti müxtəlif sahələrdə mövcud problemləri, onların həlli istiqamətində görülən işləri daha yaxşı dərk edir. Bu illər ərzində biz bir çox görüşlər keçirmişik, beynəlxalq təşkilatların nümayəndələri, mütəxəssislər dünyada qarşılaşdıqları çətinliklərlə bağlı fikirlərini bölüşür və dünyada sülhün bərqərar olması məqsədilə mövcud problemlərin həll yollarını axtarırlar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, “Bakı Prosesi”nin və Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarının akademik məsləhətçisi, Böyük Britaniyanın Koventri Universitetinin Etimad, Sülh və Sosial Münasibətlər Mərkəzinin icraçı direktoru, professor Maykl Hardi deyib. “Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu müzakirə olunur”, - deyə professor Maykl Hardi əlavə edib.

## Rodriqo Maya: Ölkələrimiz arasında münasibətləri daha da inkişaf etdirmək üçün Bakıya gəlmişəm

İki ölkə arasında münasibətləri daha da inkişaf etdirmək üçün Bakıya gəlmişəm. Bu sözləri AZƏRTAC-a müsahibəsində Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Maya deyib. “Hər dəfə Braziliyada deputatlar palatasının sədri seçiləndə Azərbaycana gəlirəm. Məqsədim iki ölkə arasında münasibətlərin inkişafına təkan verməkdir. Bu işdə Azərbaycan tərəfi hər zaman mənə dəstək olub. Düşünürəm ki, iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var. Bakıda olduğum müddətdə keçirəcəyim görüşlərdə qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsinə xüsusi önəm verəcəyəm”,- deyə Rodriqo Maya bildirib.

## Alfredo Nieves Portuondo: Forum dünyanı birliyə, sülhə və dialoqa çağırır

Bu forum artıq beşinci dəfədir ki, keçirilir və ildən ilə nüfuzu artır. Dünyada mövcud vəziyyət elədir ki, tolerantlıq qorunmur, bununla yanaşı bir çox qruplaşmalar insanların sakitliyini pozur. Yaşadığımız dünyada hələ də müharibələrə çağırışlar səsləndirilir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı Kubanın Azərbaycandakı səfiri Alfredo Nieves Portuondo deyib. Dünya ictimaiyyətinin belə bir foruma ehtiyac duyduğunu vurğulayan diplomat deyib: “Azərbaycan hökumətinə belə bir forumu təşkil etdiyinə görə minnətdar olmalıyıq. İndi Bakı bütün dünyanın bir növ paytaxtına çevrilib. Bu görüş düşünənlər üçündür. Bu bir növ insanlara, bütünlükdə cəmiyyətə həyəcan siqnalı verən bir forumdur. Forum dünyanı birliyə, sülhə və dialoqa çağırır. Səfir Mədəniyyətlərarası Dialoq Forumunun bütün dünyaya öz töhfəsini verəcəyinə inamını ifadə edib.

# Heydər Əliyev və Azərbaycan: möhtəşəm inkişaf erasına doğru

## YAP Sabunçu rayon təşilatı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirib

***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Bakıxanov qəsəbəsində yenidən qurulan istirahət parkında inşa edilmiş və 13 dekabr 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin açılışında iştirak etdiyi Bakı Gənclər Mərkəzində geniş tədbir keçirilib.***

Tədbirdə Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərək bildirib ki,





Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz hissəsini təşkil edir.

M.Abasquliyeva, həmçinin, gənc nəslin inkişafı, tərəqqisi Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasətinin nəticəsidir: "Yeni Azərbaycan Partiyasının Sədri, Prezidentimiz İlham Əliyevin apardığı mütərəqqi siyasət bu gün bizim hər birimizin partiya həyatında daha fəal olmağımız üçün geniş şərait yaradır. Gənclər də, o cümlədən YAP Sabunçu rayon təşkilatının gəncləri də Yeni Azərbaycan Partiyasının sadiq üzvləri kimi ölkəmizin inkişafında öz töhfələrini verməkdədirlər. Bu isə, bilavasitə Yeni Azərbaycan Partiyasının Sədri, möhtərəm Prezidentimiz İlham Əliyevə olan sarsılmaz inamın bariz nəticəsidir".

Tədbirdə çıxış edən YAP Sabunçu rayon təşkilatının sədrinin müavinləri Bəxtiyar Qasımov və Məhərrəm Mehrəliyev, YAP Sabunçu rayon təşkilatının Aparat rəhbəri Rəşad Abbasəliyev, YAP Sabunçu rayon gənclər birliyinin sədri Qüdrət Əlipənahov, Bakı Sosial-İqtisad Kollecinin direktoru Vidadi Orucov və başqaları Ulu Öndər Heydər Əliyevin xalq və dövlət üçün gördüyü, xeyrli, gərəkli fəaliyyətindən və Dahi Öndər Heydər Əliyevin ən layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyevin dövlətimizin daha da inkişaf etdirilməsi, xalqın sosial-rifah halının yaxşılaşdırılması, Azərbaycanın dünyada yerinin və rolunun möhkəmləndirilməsində göstərdiyi əvəzsiz xidmətlərindən danışdılar.

**RƏFİQƏ HÜSEYNOVA**

# "Ən yaxşı təqdimat" layihəsinin yekunu

## Xaçmaz rayonunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirilib





***Dünən YAP Xaçmaz rayon təşkilatının və rayon təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan "Ən yaxşı təqdimat" layihəsinin yekunu ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq Ümumilli Lider Heydər Əliyevin Azərbaycan dövləti, dövlətçiliyi və xalqı üçün gördüyü işlərdən geniş məlumat verib. N.Ağayev bildirib ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, müasir müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu Ulu Öndər Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilmişdir: "Bu gün hər birimiz Ulu Öndər qurub yaratdığı, dünyaya tanıtdığı müasir Azərbaycanın vətəndaşları olmağımızla fəxr edirik. Müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsini öyrənmək hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Ulu Öndər Heydər Əliyevin sarsılmaz polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaz xidməti, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi qoyulmuşdur. Məhz onun inkişaf strategiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirə bilmiş, zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur".

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının şura üzvləri Mədinə Nurməmmədova, Tünzalə Salahova, şair Telman Təravət və digərləri çıxış edərək, ölkə rəhbərinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsi olaraq ölkəmizin inkişafından danışıblar.

Sonda layihənin qalibləri YAP Xaçmaz rayon təşkilatı tərəfindən qiymətli hədiyyələr, diplomla mükafatlandırılıb.

Sonda bir qrup gəncə YAP vəsiqələri təqdim edilib.

**R.HÜSEYNOVA**

# Sosial siyasətdə inqilabi islahatlar...

## Prezident İlham Əliyevin son qərarları bu faktoru təsdiqləyir

***Azərbaycanın son 16 ildə sürətli inkişafı sosial sahədə irimiqyaslı islahatlar aparmağa imkan yaradıb. Azərbaycan hökuməti iqtisadi islahatlardan əldə edilən gəlirlər hesabına sosial proqramları genişləndirib. Deyilən bu uğurlu nəticələri Azərbaycan Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir daha vurğulanıb. Sözügedən məsələ ilə bağlı millət vəkilləri bildiriblər ki, dövlət başçısı vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, ölkəmizin daha da inkişaf etdirilməsinə xidmət edən sərəncamları, fərmanları və qərarları reallaşdırılan böyük sosial islahatlar paketinin tərkib hissəsidir.***

### Tahir Süleymanov: "Ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır"



"Azərbaycanda yüksək vətəndaş məmnunluğu yaradan dəyərlər formalaşıb. Belə ki, Prezident İlham Əliyev həmişə qəti mövqe və siyasi iradə ortaya qoyaraq komandasının diqqətini, dövlətin resurslarını ən ümdə məsələlərə yönəldir. Bu məsələlər sırasında sosial sfera, vətəndaşlara qayğı prioritet təşkil edir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır". Bu fikirləri "SƏS" qəzetinə açıqlamasında millət vəkili Tahir Süleymanov həyata keçirilən uğurlu islahatlar paketinin verdiyi töhfələrə və Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasətə münasibətini şərh edərkən deyib. Onun sözlərinə görə, dövlət başçısının aprelin 30-da Nazirlər Kabinetinin iclasında irəli sürdüyü fikirlər, həm də belə qənaətə gəlməyə əsas verir ki,Prezident İlham Əliyev sabit və davamlı inkişaf üçün qətiyyətli mövqeyini ortaya qoymaqla, Azərbaycan xalqının rifah halının daha da yüksəldilməsi istiqamətində yorulmaz fəaliyyət göstərir: "Əbəs deyil ki, Prezident İlham Əliyev mütəmadi qaydada ictimaiyyətin nümayəndələri ilə görüşür, tez-tez bölgələrə səfərlərə gedir, baş verən bütün hadisələrə şəxsi diqqət və nəzarətini gücləndirir. Bununla sübut olunur ki, O, xalqının Prezidentidir və daim xalqının Ona göstərdiyi etimadı ən ali səviyyədə doğruldur. Dövlət başçısı insanları narahat edən məsələlərlə yerindəcə tanış olur, həmçinin, əvvəllər verilən tapşırıqların müvafiq qurumlar tərəfindən necə icra edildiyi ilə maraqlanır".

Millət vəkilinin sözlərinə görə, ölkənin dayanıqlı və inklüziv inkişafına nail olmaq məqsədilə Prezident İlham Əliyev tərəfindən aparılan geniş islahatlar paketi regionların inkişafına da mühüm təsir edir və görülən uğurlu işlərin davam etdirilməsi, regionların sosial-iqtisadi inkişafını sürətləndirməsi, bütövlükdə Azərbaycan iqtisadiyyatının daha sürətli inkişafının təmin edilməsi, əhalinin rifah halının daha da yaxşılaşması yönündə ardıcıl, uğurlu siyasət davam etdirilir: "Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr deməyə əsas verir ki, respublikamız qlobal böhrandan irəli gələn çətinliklərə baxmayaraq inkişafdadır. Ən başlıcası isə qazanılan iqtisadi uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Çox qürurverici ənənədir ki, həyata keçirilən sosial siyasət tamamilə Azərbaycan vətəndaşının həyatını müsbət istiqamətdə dəyişdirməyə, insanların özlərini güvənli hiss etməyə sövq edir. Prezident İlham Əliyevin dediyi kimi, "layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq".

### Eldar Quliyev: "Prezident İlham Əliyev Azərbaycanın mövqeyini dünyanın ən nüfuzlu və lider ölkələri sırasında möhkəmləndirəcək"



"Azərbaycanın iqtisadi inkişafı davamlı bir prosesə çevrilib və bu, hər il daha da artmaqdadır". Bu fikirləri Milli Məclisin deputatı Eldar Quliyev aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında irəli sürülən fikirləri şərh edərkən deyib.

"Təsadüfi deyil ki, hələ bir neçə il öncə dünyada qlobal maliyyə böhranı yarandığı, eləcə də neftin qiymətinin kəskin ucuzlaşdığı dövrlərdə belə ölkəmizin iqtisadi inkişafı öz davamlılığını və stabilliyini qoruya bilmişdi", deyə xatırladan deputat bildirib ki, hələ o zamanlarda ölkəmiz bu ağır sınaqlardan minimal ziyanlarla çıxa bilmişdi: "Bu gün Azərbaycan dövləti bir daha öz inkişafı və tərəqqisi ilə sübut edir ki, ölkəmizin təməlində də bu reallıq dayanır. Prezident İlham Əliyevin yeni dövrə uyğunlaşdırılmış şəkildə davam etdirdiyi və strateji əhəmiyyətə malik iqtisadi siyasət kursun uğurla davam etdirilməsi Azərbaycanın çoxşaxəli və davamlı inkişafının əsas təməlidir.

Eldar Quliyev onu da bildirib ki, həyata keçirilən uğurlu və inqilabi islahatlar paketi də əldə edilən nailiyyətlərə böyük təkan verir: "Həyata keçirilən hər bir iş, reallaşdırılan hər bir layihə xalqın sosial-iqtisadi rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir. Artıq xalqı narahat edən bir sıra problemlər aradan qaldırılıb, sosial müavinətlərin, pensiya və əmək haqlarının artırılması davamlı xarakter alıb, qaçqın və məcburi köçkünlərə qayğı artırılıb, Qarabağ və əmək veteranlarına da eyni yüksək münasibət göstərilir, həmçinin, problemli kreditlərin də həll olunması buraya əlavə edilə bilər. Bütün bunlar sabitliyin, iqtisadi inkişafın məntiqi nəticəsidir və dövlət yalnız xalqına xidmət göstərir. Bunu iclasda Prezident İlham Əliyev də vurğulayıb".

"Statistitk rəqəmlər də kifayət qədər yüksək rəqəmlərdir və iqtisadi sahənin inkişafı öz müsbət effektini göstərir", deyə qeyd edən millət vəkili əlavə edib ki, bu siyasət qarşıdakı illərdə də davam ediriləcək və dövlət başçısı, İlham Əliyev Azərbaycanın mövqeyini dünyanın ən nüfuzlu və lider ölkələri sırasında möhkəmləndirəcək.

### Mahir Abbaszadə: "Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin qayğıkeş hamisidir"



"Bu gün Azərbaycan dövləti öz gücünə məcburi köçkünlərin sosial problemlərini həll edir". Bunun millət vəkili, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru Mahir Abbaszadə bildirib. Qeyd edib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 20 faiz torpaqlarımız işğal olunub, 1 milyon insan isə öz torpağından qaçqın-köçkün vəziyyətinə düşüb: "Ermənistanın işğalçılıq siyasəti hələ də davam edir, ona görə də, həmin insanlar öz doğma yurdlarına qayıda bilmirlər. Buna baxmayaraq, Azərbaycan dövləti öz vətəndaşlarına sahib çıxaraq onların qayğıları, problemləri ilə yaxından məşğul olur. Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən müşavirədə də dövlət başçısı bildirib ki, bu məsələ daima diqqət mərkəzində olacaq. Bu, Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərə diqqət və qayğısının reallığıdır. Ölkə Prezidentinin rəhbərliyi altında hər il bu istiqamətdə müvafiq addımlar atılır, qaçqın və məcburi köçkünlər, Qarabağ əlilləri, ailə qayğısından məhrum olmuş gənclər və digər bu kateqoriyadan olan vətəndaşların problemləri öz həllini tapır".

M.Abbaszadə onu da bildirib ki, dövlət başçısı bildirib ki, bütün sahələrdə uğurlu inkişaf olduğu kimi, məcburi köçkünlərin də problemləri daim diqqət mərkəzində olacaq: "Və müşavirədə görülən işlər rəqəmlərlə aydın şəkildə vurğulanıb. İlk seçki marafonunda ölkə Prezidenti İlham Əliyev xalqa vəd etdi ki, ölkəmizdə bir çadır düşərgəsi qalmayacaq, bütün çadır düşərgələri ləğv olunacaq, qaçqınlarımız digər vətəndaşlarla eyni səviyyədə yaşayış şəraiti ilə təmin olunacaqlar. Həqiqətən də, bu gün respublikamızda artıq çadır düşərgəsi qalmayıb. Elə ölkələr var ki, illərlə vətəndaşları çadırlarda qalır. Amma qısa müddət ərzində, heç bir beynəlxalq dəstək olmadan Azərbaycan öz gücünə bu işlərin öhdəsindən gəldi. Ümumiyyətlə, son 16 ildə Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur. Bir sözlə, bu insanlar inanırlar ki, Cənab Prezidentin qətiyyətli siyasəti nəticəsində doğma torpaqlarına qayıdacaqlar. Çünki Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin qayğıkeş hamisidir".

**RƏFİQƏ KAMALQIZI**

## "Bakı Forumu artıq unikal beynəlxalq platformaya çevrilib"



"Ümumiyyətlə, Bakı Prosesi 2008-ci ildən Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə başlayıb. Ötən müddət ərzində biz Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna qatılan iştirakçı ölkələrin sayının artdığının, eyni zamanda daha çox beynəlxalq təşkilatın yüksək rütbəli rəsmilərinin Prosesə qatıldığının şahidi oluruq. Forumun coğrafiyası da kifayət qədər genişlənib". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Siyasi şərhçinin sözlərinə görə, Bakı Forumu artıq unikal bir beynəlxalq platformaya çevrilib və bu da nəticə etibarilə Azərbaycanın dünyada münaqişələrin tənzimlənməsi prosesində aktiv mövqeyini önə çəkir: "Bu aspektdən də şübhəsiz ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu xüsusi əhəmiyyətə malikdir. Bildiyiniz kimi cənab Prezident Forumda açılış nitqi ilə çıxış etdi və bir sıra mühüm istiqamətlərə diqqət çəkdi və bu gün münaqişələrin yaranma səbəblərini vurğuladı. Dövlət başçısı həmçinin irqçiliyin, dini və milli ayrı-seçkiliyin bəşəriyyət üçün nə qədər böyük təhlükə yaratdığını qeyd etdi. Prezident eyni zamanda bildirdi ki, yeni çağırışlar meydana gəlib. Bu çağırışların içərisində sosial şəbəkələrdə diskriminassiya hallarının daha da geniş yayılması narahatedicidir. Əslində Forumun panellərində qoyulan mövzular da Azərbaycanın bu gün dünyada baş verən problemlərə nə qədər həssas yanaşdığını, eyni zamanda bu problemlərin həlli yolu istiqamətində ciddi addımlara səy göstərdiyini sübuta yetirir. Şübhəsiz ki, Bakı platforması davamlı olacaq. Xüsusilə qeyd etmək lazımdır ki, bura qatılan qonaqların həm yüksək ranqlı olmasına, həm də daha çox ölkəni əhatə etməsinə görə ilk növbədə, Azərbaycan dövlətinin mövqeyindən və Azərbaycan Prezidentinin beynəlxalq nüfuzundan xəbər verir".

## "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri başa çatıb



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən mayın 1-də başlayan "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri başa çatıb. AZƏRTAC xəbər verir ki, taktiki təlimlərə Azərbaycan və Türkiyədən 1000-dən çox şəxsi heyət, 60-a yaxın döyüş texnikası, 30 artilleriya qurğusu, 20-yə yaxın döyüş helikopterləri və digər döyüş texnikaları cəlb olunub. Təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərinin və qarşılıqlı anlaşmasının yüksək səviyyədə saxlanılması olub. Təlimlərdə tapşırıqlar uğurla icra edilib.

# Heç kim, heç bir qüvvə Azərbaycanla zor, təzyiq, təhdid, diktə dili ilə danışa bilməz

*-Məlahət xanım, bu gün Azərbaycan dünyada böyük nüfuza sahib olan ölkədir. Bu baxımdan, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin hazırkı səviyyəsini necə dəyərləndirirsiniz?*

-Ümumiyyətlə, Azərbaycan hazırda dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində ötən illər ərzində Azərbaycanın beynəlxalq müstəvidə nüfuzu əhəmiyyətli dərəcədə artıb. Bu gün ölkəmiz bir sıra beynəlxalq təşkilatların aparıcı üzvlərindən biridir, həmin qurumların işində fəal iştirak edir.

Bu mənada, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin də yüksək səviyyədə olduğunu qeyd edə bilərik. Bilirsiniz ki, tərəflər arasında gələcək münasibətləri özündə ehtiva edən sazişə dair danışıqlar davam edir və bu göstərir ki, Avropa İttifaqı Azərbaycanı strateji tərəfdaşı hesab edir. Bu fakt bir daha Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə etimad və inamın ifadəsidir.

Bilirsiniz ki, Avropa strukturlarının, o cümlədən Avropa İttifaqının öz prinsipləri var. Bu təşkilat Azərbaycanla əməkdaşlıq məsələlərində ölkəmizin siyasətinə, regional və beynəlxalq roluna, dövlət rəhbərliyinin daxili və xarici siyasətinə diqqət yetirir. Bu gün Azərbaycan mühüm enerji siyasəti həyata keçirir. Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi qlobal layihələr Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayır. Eləcə də, Bakı-Tbilisi-Qars dəmir yolu xətti dünyada dəmir İpək Yolu kimi dəyərləndirlir. Ölkəmiz eyni zamanda, mühüm tranzit əhəmiyyətə malikdir. Təbii ki, bu qlobal layihələrin reallaşması Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir. Ona görə də, Avropa İttifaqı ölkəmizlə əlaqələrin gücləndirilməsinə böyük əhəmiyyət verir.



**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Məlahət İbrahimqızının yap.org.az-a müsahibəsi**

Azərbaycan gənc dövlətdir, bu il müstəqilliyimizin 28-ci ilini yaşayırıq. Avropada böyük tarixi olan, bərqərar olmuş dəyərlər var. Onu da deyim ki, demokratiyanın sonu yoxdur. Azərbaycan da gənc dövlət kimi Avropanın qabaqcıl təcrübəsini öyrənir. Biz bu təcrübədən istifadə edərək təhsilimizi, səhiyyəmizi gücləndirəcəyik, yeni Avropanın əldə etdiyi nailiyyətlərdən bəhrələnəcəyik. Eyni zamanda, qanunvericiliyin inkişafı baxımından da, Avropa İttifaqı ölkələrinin təcrübəsindən yararlanmaq faydalıdır. Bununla yanaşı, Avropa İttifaqı da Azərbaycandan bəhrələnəcək. Belə bir mürəkkəb regionda Azərbaycan Avropa üçün böyük önəm kəsb edir. Qeyd etdiyim kimi, mürəkkəb coğrfiyada yerləşən ölkəmiz, Prezidentimizin qətiyyətli siyasəti nəticəsində qlobal layihələr reallaşdırıb.

Onu da qeyd edim ki, Azərbaycan Avroatlantik strukturların, xüsusilə, NATO-nun etibarlı tərəfdaşlarından biridir. Bu mənada, belə bir sazişin imzalanması həm Azərbaycan, həm də Avropa İttifaqı üçün önəmlidir. Bzim üçün həyati əhəmiyyət kəsb edən məsələ Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq sazişdə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tanınması Prezident İlham Əliyevin qətiyyətinin nəticəsidir. Ona görə də, sazişin imzalanmasından sonra Azərbaycan xalqı üçün yeni inkişaf perspektivləri açılacaq.

*- Ölkəmizin uğurlu inkişafından danışdınız. Amma bəzi dairələr Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa çalışırlar. Buna münasibətiniz necədir?*

- Bu, çox təəssüf doğurur. Yaxşı olardı ki, ölkəmizdə görülən bu möhtəşəm işləri anti-Azərbaycan dairələrin əlində alətə çevrilən, müstəqil inkişafımıza qarşı həmin dairələr tərəfindən təzyiq, təsir mexanizmi kimi istifadə edilən, edilməyə çalışılan bəzi "sapı özümüzdən olan baltalar" da görsünlər, duysunlar, anlasınlar. Bilsinlər ki, heç kim, heç bir qüvvə artıq Azərbaycanla zor, təzyiq, təhdid, diktə dili ilə danışa bilməz. Bu yöndə cəhdlər yersiz və əbəsdir. Atdıqları bumeranq kimi yalnız özlərinə dəyəcək, özlərini əzib keçəcək. Atalar məsəlində deyildiyi kimi, yel qayadan heç nə apara bilməz və bilməyəcək. Ona görə yaxşı olardı ki, onlar da səhvlərini, yanlışlarını, nəhayət, anlasınlar, oyuncaq kimi istifadə edilməkdən qurtulsunlar və düz yola gəlsinlər. Sosial şəbəkələr vasitəsilə şər, böhtan kampaniyası aparmaq, insanları təhqir etmək, mənəvi terrora məruz qoymaq yolverilməzdir. Bütün bunların qarşısı qanun çərçivəsində alınmalıdır. Demokratiya, söz azadlığı o demək deyil ki, hər kəs istənilən zaman başqalarını təhqir edə bilər. Bu reallıq dünya ölkələrində də narahatlıq doğurur və bunun qarşısını almaq üçün lazımi addımlar atılır.

*-Kütləvi informasiya vasitələrində ölkəmizdə yeni bir partiyanın yaradılacağı haqqında məlumat yayılıb. Həmin təşkilatın da, radikal mövqedən çıxış edəcəyi haqqında fikirlər səsləndirilir. Bu barədə nə deyə bilərsiniz?*

-Azərbaycan demokratik dövlətdir. Siyasi plüralizm, söz azadlığı gündən günə daha da genişlənir. Amma bu gün heç bir şəxs və ya qurum Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevə rəqib ola bilməz. Bu gün ölkəmizdə konstruktiv siyasi partiyalar fəaliyyət göstərir, bütövlükdə rəsmi qeydiyyatdan keçən siyasi partiyaların sayı 50-dən çoxdur.

Müəyyən partiyalar isə destruktivdir və radikal mövqedən çıxış edir. Onlar ölkəmizin inkişafını istəməyən xarici dairələrdən dəstək alırlar və ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bu təşkilatlar Azərbaycanın nailiyyətlər qazanmasını istəmir, müxtəlif yollarla varlıqlarını qorumağa çalışırlar.

Əlbəttə ki, bundan sonra kimsə ailə üzvlərindən, qohumlarından ibarət hansısa təşkilat, partiya yarada bilər. Kütləvi informasiya vasitələrinin yaydığı məlumata görə, kimlərsə yeni siyasi partiya yaratmağa çalışır. Bu siyasi partiyanın da radikallığa meyilli və xaricdən ölkəmizi istəməyən dairələrdən dəstək almağa ümidli olması görünür. Belələrinin bioqrafiyası Azərbaycan cəmiyyətinə yaxşı tanışdır. Onların bir çoxu dünənə qədər hakimiyyətə mədhiyyələr deyirdilər. Bu kimi faktlar onların nə qədər saxta olduqlarını göstərir. Beləlari cəmiyyətimizdən heç bir dəstək almayacaqlar.

Bu gün bütün dünya cənab İlham Əliyevi təkcə Azərbaycanın Prezidenti kimi deyil, bütövlükdə regionun siyasi lideri kimi qəbul edir. Belə bir halda, kimlərinsə yeni bir siyasi partiya yaradıb destruktiv fəaliyyət göstərməsinin heç bir perspektivi yoxdur. Burada atalarıın "Yel qayadan nə aparacaq?" məsəli yada düşür. Azərbaycan cəmiyyəti radikalları heç vaxt qəbul etməyib və bundan sonra da qəbul etməyəcək.

# XİN: erməni KİV-lərinin separatçı rejimin "naziri"nin Argentinaya səfərinə dair məlumatları özünüaldatmadan başqa bir şey deyil

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi erməni KİV-lərində qondarma separatçı rejimin "xarici işlər naziri"nin Argentinada görüşlər keçirməsi ilə bağlı yayılan məlumata münasibət bildirib. AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva məsələ ilə bağlı şərhində Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimin "nümayəndəsi"nin Argentinaya səfəri ilə bağlı erməni KİV-lərində yayılmış məlumatların qanunsuz rejimin təşviqinə hesablandığını və özünüaldatmadan başqa bir şey olmadığını bildirib.

"Qeyd etmək istərdim ki, Argentinanın erməni icmasının Buenos Ayres Universitetinin hüquq fakültəsində təşkil etdiyi, uydurma "erməni soyqırımı"na həsr olunmuş tədbirlərdə iştirak edən separatçı rejimin "nümayəndəsi" Argentinada hər hansı rəsmi şəxslə görüşə nail olmayıb. Bundan əlavə, Argentinanın "Erməni İnstitutları" adlı təşkilatı Argentina Xarici İşlər və Etiqad Nazirliyinin aprelin 24-də dövlət qurumlarına ünvanladığı notanı dərc edərək öz dərin narahatlığını ifadə edib. Belə ki, Argentina Xarici İşlər və Etiqad Nazirliyi sözügedən notasında Argentinanın BMT Nizamnaməsinin 2-ci maddəsində əks olunmuş, digər dövlətin daxili işinə qarışmama və dövlətin ərazi bütövlüyünə hörmət prinsipinin suveren dövlətlər arasında münasibətlərin, həmçinin beynəlxalq sülh və təhlükəsizliyin fundamental sütunu hesab etdiyini və bu səbəbdən, Argentina Respublikasının öz müstəqilliyini elan etmiş "Dağlıq Qarabağ respublikası" və ya "Artsax"ı beynəlxalq hüquq çərçivəsində müstəqil və suveren dövlət kimi tanımadığını vurğulayır. Bununla əlaqədar, Dağlıq Qarabağın "xarici işlər naziri"ni qəbul etməmək və onunla rəsmi görüşlər keçirməmək tövsiyə olunur.




Göründüyü kimi, separatçı rejimin "nümayəndəsi" qanunsuz işğalçı rejimin beynəlxalq ictimaiyyət, o cümlədən Argentina tərəfindən tanınmadığının bu ölkəyə səfər edərək şəxsən şahidi olub. Eyni zamanda, bildirmək istərdim ki, həmin tarixlərdə Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo ilk dəfə olaraq ölkəmizdə rəsmi səfərdə olub və keçirdiyi bütün görüşlərdə Argentinanın yuxarıda qeyd olunan mövqedən çıxış etdiyini və ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bəyan edib", - deyə mətbuat xidmətinin rəhbəri qeyd edib.

# “Mətbuat azadlığı: bəşəri mahiyyət və Azərbaycan reallıqları”

***Dünən Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə 3 may Ümumdünya Mətbuat Azadlığı Gününə həsr olunmuş “Mətbuat azadlığı: bəşəri mahiyyət və Azərbaycan reallıqları” mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, konfrans iştirakçıları əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin və milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin məzarını ziyarət ediblər. Toplantını giriş sözü ilə Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov açaraq 3 may Ümumdünya Mətbuat Azadlığı Gününün yaranma tarixi ilə bağlı geniş məlumat verib. O bildirib ki, “soyuq müharibə” başa çatdıqdan sonra planetin siyasi mənzərəsi ciddi şəkildə dəyişdi. 1989-cu ilin noyabrında YUNESKO-nun Baş Konfransı kommunikasiya sahəsində yeni strategiya qəbul etdi. Bu strategiya informasiyanın sərbəst yayımını, inkişaf etməkdə olan ölkələrin kommunikasiya imkanlarının artırılmasına yardım göstərməyi nəzərdə tutdu. 90-cı illərdə Şərq-Qərb mətbuat nümayəndələrinin görüşünün keçirilməsi təklif olundu.***





Görüş 1990-cı ilin fevralında gerçəkləşdi. Orada Mərkəzi və Şərqi Avropa ölkələri ilə yanaşı, Qərbi Avropa və Şimali Amerikadan gəlmiş 80-ə yaxın jurnalist və redaktor iştirak etdi. Toplantı Mərkəzi və Şərqi Avropada demokratik proseslərin inkişafına BMT-nin töhfəsi idi. Görüşdə jurnalistlərin fəaliyyətlərini yeni şəraitə uyğun qurmaları, Şərqlə Qərb arasında informasiya mübadiləsinin inkişafı zərurəti müzakirəyə çıxarıldı. Müzakirələr mətbuatın müstəqilliyi, plüralizm və söz azadlığı prinsiplərinin bütün dünyada bərqərar olunması üçün geniş tədbirlər proqramının meydana çıxmasını şərtləndirdi.

Ə.Amaşov çıxışında onu da bildirib ki, 1991-cı ilin mayında Namibiyanın paytaxtı Vindhukda keçirilmiş seminarın iştirakçılarının qəbul etdikləri bəyannamə Afrikada mətbuat azadlığının qorunmasına, müstəqil və plüralist informasiya vasitələrinin inkişafına zəmin yaratdı. YUNESKO-nun Baş Konfransı özünün 26-cı sessiyasında BMT-nin Baş Məclisindən 3 may 1991-ci il Vindhuk Bəyannaməsinin ildönümünü keçirməyi və may ayının 3-nü “Ümumdünya Mətbuat Azadlığı günü” kimi rəsmiləşdirməyi təklif etdi. Məclis 1993-cü ildə həmin təklifi nəzərə alaraq 3 may tarixini “Ümumdünya Mətbuat Azadlığı Günü” olaraq təsdiqlədi.

Azərbaycanda da hər il 3 may tarixinin ölkənin media cameəsi tərəfindən geniş şəkildə qeyd edildiyini diqqətə çatdıran MŞ sədri vurğulayıb ki, həm media sahəsində qəbul edilmiş qanunvericilik, həm jurnalistlərin sosial-məişət şəraitinin, həm də redaksiyaların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönələn tədbirlər ölkəmizdə mətbuat azadlığına həssas yanaşıldığının, ona xüsusi dəyər verildiyinin bariz nümunəsidir və buna görə hazırda media-mız bölgədə lider mövqeyə malikdir. Ə.Amaşov Azərbaycanda media azadlığı ilə bağlı problemlərin də mövcudluğunu dilə gətirib və bildirib ki, ümumən medianın başlıca çətinliyi onun iqtisadi cəhətdən özünü maliyyələşdirmək imkanlarının məhdudluğudur. Mövcud amil qeyri-peşəkarlıq meyillərinin nəzərə çarpmasını da şərtləndirməkdədir.

MŞ sədri çıxışında “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun qətlinə də diqqət yetirib və bildirib ki, 2005-ci ildə baş vermiş bu faciə ölkəmizdə söz və mətbuat azadlığına qarşı böyük hücum idi. Qətli törədənlərin tapılıb məsuliyyətə cəlb olunmalarının vacibliyini vurğulayan Ə.Amaşov hüquq-mühafizə orqanlarını bu istiqamətdə aktiv olmağa çağırıb.

MŞ İdarə Heyətinin üzvü, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu söz və mətbuat azadlığının Azərbaycan üçün böyük nemət olduğunu bildirib. Azadlıq anlayışına fəlsəfi nöqteyi-nəzərdən yanaşan, onu mənəvi tələbat olaraq dəyərləndirən baş redaktor vurğulayıb ki, jurnalistika cəmiyyət üçün həyati əhəmiyyət daşıyan və geniş sərhədlərə malik söz azadlığının yaşadılmasında müstəsna missiya daşıyan institutdur. Ölkəmizdə bu missiyaya həm ictimai, həm də dövlət idarəçiliyi baxımından məxsusi yanaşılır.

MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu çıxışında söz və mətbuat azalığı ilə bağlı beynəlxalq miqyasdakı vəziyyət barədə söz açıb. O, diqqəti bu azadlığı təhdid edən meyillərə çəkib və əsasən dezinformasiyalar üzərində dayanıb. U.Rəhimoğlu məsələnin BMT səviyyəsində dəfələrlə geniş müzakirəyə çıxarıldığını bildirib və əlavə edib ki, dünyada konfliktlərin çoxaldığı indiki dövrdə söz və mətbuat azadlığının reallığı və həqiqətləri bəyan edən vasitə kimi əlahiddə statusda daha real şəkildə qəbulu mütləqdir.

Dağlıq Qarabağ münaqişəsində işğalçı Ermənistan tərəfindən 6 azərbaycanlı jurnalistin qətlə yetirildiyini bildirən MŞ İdarə Heyətinin üzvü Azər Həsrət münaqişənin söz azalığına basqı mahiyyətini də qabardıb. Azərbaycan əsgəri tərəfindən nəinki erməni jurnalistinə, ümumən heç bir jurnalistə güllə atılmadığını deyən A.Həsrət eyni zamanda diqqəti söz və mətbuat azadlığından manipulyasiya məsələlərinə yönəldib. O bildirib ki, Dağlıq Qarabağda erməni terrorunun qurbanı olmuş jurnalist Osman Mirzəyevin qızı Sevinc Osmanqızı söz azadlığı prinsiplərindən Azərbaycan əleyhinə sui-istifadə ilə məşğuldur və bu, kifayət qədər ziddiyyətli məqamdır. A.Həsrət jurnalist E.Hüseynovun qatillərinin tapılaraq qanunlar qarşısında məsuliyyətə cəlb olunmalarının vacibliyindən söz açarkən jurnalistin qətlinin siyasi məqsədlər və müxtəlif qrant maxinasiyaları üçün alətə çevrilməsinin yolverilməzliyini vurğulayıb.

MŞ İdarə Heyətinin üzvü, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid müasir mediada söz azadlığının ifadəsi üçün zəruri sayılan baxışların dəyişdiyindən söz açıb. Bu xüsusda nəzərə çarpan qeyri-ciddi mövzulara müraciət tendensiyasının nəinki ölkəmizdə, eləcə də bütün dünyada xarakterikliyini əsaslandırıb. Belə bir mühitdə söz azadlığının gerçək mahiyyətinin deyil, bəzən reallıqlardan kənar mülahizələrin cəlbedici olduğunu vurğulayıb. O, Azərbaycan jurnalistlərinin bütün bunları nəzərə alaraq fəaliyyət göstərməsinin arzulanan olduğunu deyib.

MŞ İdarə Heyətinin üzvü, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev çıxışında bildirib ki, Azərbaycanda mətbuatla dövlət arasında anlaşma mühitinin mövcuddur. Bu mühit jurnalistikamızın dünyanın bir sıra ölkələrində olduğu kimi, müxtəlif kriminal çevrələrin, siyasi qruplaрın əlində manipulyasiya predmetinə çevrilməməsinin təminatıdır. A.Quliyev mediamızın problemlərini də sadalayıb və vurğulayıb ki, əsas olan problem və çətinlikləri aradan qaldırmaq iradəsinin, qətiyyətin və düzgün müəyyənləşdirilmiş strategiyanın olmasıdır.

Müasir dünyada söz və mətbuat azadlığı prinsiplərinə yeni baxışların diqqət çəkdiyini vurğulayan MŞ İdarə Heyətinin üzvü, “Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli bu durumda həmin dəyərlərin təhdidə məruz qaldığını da xarakterik cəhət kimi önə çəkib. Yeni dövrün çağırışlarında söz azadlığındakı sərhədlərin çox incə şəkildə müəyyənləşdiyini bildirən baş redaktor Azərbaycan jurnalistlərinin də tələblərə uyğun, peşəkarlıq meyarlarını qoruyaraq universal şəkildə fəaliyyət göstərmələrinin zəruriliyini əsaslandırıb.

“Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu 3 may Ümumdünya Mətbuat Azadlığı Gününün yalnız media ictimaiyyəti deyil, bütövlükdə cəmiyyət üçün böyük əhəmiyyət daşıdığını deyib. O, həmçinin bildirib ki, bu günün mahiyyətinə diqqətin artırılması məqsədilə müxtəlif festivallar da təşkil olunmalıdır.

MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli bildirib ki, dünyanın aparıcı dövlətlərini söz azadlığının bir dəyər kimi müdafiəsinin vacibliyi məsələsi ciddi şəkildə düşündürməkdədir. Bu xüsusda sosial şəbəkələrdə və digər resurslarda yayımlanan feyk xəbərlərdən qorunmaq üçün ənənəvi medianın rolunun artırılması üzərində dayanılır. M.Ələsgərli ölkəmizdə də buna diqqət yetirilməsinin zəruriliyindən söz açıb və əlavə edib ki, məsələ peşəkar jurnalistləri düşündürməli, onlar mövcud istiqamətdə bütün imkanlarını səfərbər etməlidirlər.

Ümumən konfrans iştirakçılarının yekdil fikri bundan ibarət olub ki, söz və mətbuat azadlığı prinsiplərinin qorunması işindəki səmərəlilik artırılmalı, həmin prinsipləri hər hansı şəkildə təhdid edən, təhdid şübhəsi yaradan meyllərə qarşı mübarizə gücləndirilməlidir. Bu baxımdan bir sıra məqamlara diqqətin yetirildiyi konfransda jurnalist Elmar Hüseynovun qətlində günahkarların layiqli cəzalarını hələ də almamaları təəssüf doğuran hal kimi vurğulanıb. Tədbirdə əlaqədar qurumlara bu istiqamətdə ciddi fəaliyyət göstərmək çağırışı səslənib.

**Ceyhun Rasimoğlu**

***Müasir dünyamızda Azərbaycan dinlərarası, millətlərarası münasibətlərdə dünya üçün örnək, tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan, milli-mənəvi dəyərlərinə sadiq dövlətə çevrilib. Formalaşan bu dəyərlər Azərbaycan cəmiyyətini səciyyələndirən əhəmiyyətli ənənə yaradılıb. Azərbaycan dövlətinin Qurucusu və Memarı olan Ulu Öndər Heydər Əliyev "Biz heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək, gələcəyimizi quracağıq"-deyərək qeyd edirdi ki, bizim dinimiz mütərəqqi dindir: "Əsrlər boyu islam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, islam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldikləri çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz peşəsini qoruyub-saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, islam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün islam dininə itaət edən adamların hamısını xoşbəxtliyə və səadətə gətirib çıxaracaqdır".***



# Xalqımız əmin-amanlıq, sülh şəraitində Ramazan ayını qarşılayır

### "BİZ TARİXİ İRSİMİZİN, ZƏNGİN MƏDƏNİ İRSİMİZİN ƏSASINDA MÜASİR, GÜCLÜ AZƏRBAYCAN QURURUQ"

Bütün tarixi çağlarda Avropa ölkələrinin xalqları islami dəyərlərə hörmətlə yanaşaraq, dinimizə böyük maraq göstərmişlər. Bu gün Avropa ailəsinin üzvü olan Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən siyasi sabitlik bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliğinə geniş imkanlar yaradılıb. Ölkə rəhbərinin bir-birinin ardınca imzaladığı sərəncamlar milli-mənəvi irsimizin inkişaf etdirilməsində önəmli amillərdir. "Biz tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq", - deyən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmiz dünyada gedən qloballaşma prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılması, milli ideologiya, azərbaycançılıq məfkurəsi əsas aparıcı xətt olaraq təbliğ edilir.

70 il sovet imperiyasının tərkibində yaşadığımız zaman təbliğat mexanizminin, təqdimatların qarşısına səd çəkilsə də, bu gün müstəqil, suverən dövlət olan Azərbaycan əsrlərdə formalaşmış zəngin irsini dünya xalqlarına təqdim edərək, onları təəccübləndirməklə yanaşı, bu cəmdə Azərbaycan vətəndaşının varlığını nümayiş etdirir. Vaxtı ilə bu dəyərləri yaşadan böyük vətənpərvər oğullara ölüm hökmü oxundu, sürgün, işgəncələrlə dolu bir ömür yaşamağa məhkum olundular. Milli-mənəvi dəyərlərimizə olan hücum məscidlərin, ibadət evlərinin kütləvi şəkildə bağlanmasına gətirib çıxarsa da, amma bu gün yeni məscidlər salınır, bərpa olunur, "Azərbaycan - tolerantlığın ünvanı" olaraq dünyaya vəsiqə alır. Xalq tarixi kökünə sadiq qaldı və bu gün Azərbaycan müasir dünyada yeni meyarları ilə yollar açır.

### "BİZİM BÜTÜN TARİXİ MƏSCİDLƏRİMİZ DÖVLƏT TƏRƏFİNDƏN ƏSASLI ŞƏKİLDƏ BƏRPA EDİLİBDİR"

Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlara, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycanda dövlət-din münasibətlərinin necə qurulduğuna nəzər salarkən, vurğulayıb ki, Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin: "Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək və dayaq olur. Bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə bərpa edilibdir". Əlbəttə ki, dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycan modeli diqqətdədir. Çünki burada həm məscidlərimiz, həm də qeyri-xalqların dini abidələri qorunur və abadlaşır. "Bizim tarixi abidələrimiz və dini milli sərvətimizdir", -deyən Azərbaycan Prezidenti vurğulayıb ki, bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir və bizim sərvətimizdir: "Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir". Abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi, möhtəşəm Heydər Məscidi Azərbaycanda mövcud olan münasibətin təzahürüdür. Müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu inkişaf yolundadır.

Artıq xalqımız Ramazan ayını qarşılayır. "Bu gözəl ənənə yaşayır və yaşamalıdır", deyən dövlət başçısı dövlət-din münasibətlərinin formalaşmasının təşəbbüskarının Ulu Öndər Heydər Əliyev olduğunu bildirib.

Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının 2019-cu il üzrə hesablamalarına görə, ölkə ərazisinin üfüqünə uyğun olaraq Ramazan ayının 1-i Miladi tarixlə mayın 6-na təsadüf edir. Fitr bayramı isə Ayın üfüqi ərazimizdə görünməsinə əsasən iyunun 5-nə təsadüf edəcək. Azərbaycan xalqı və dövləti bu böyük və əziz bayramı hər il yüksək səviyyədə qeyd edir. Dövlətimizin dini dəyərlərə, dindarlara və din xadimlərinə diqqət və qayğısı respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyəsinin təzahürüdür.

Oruc ibadəti mənəvi saflığa, tibbi cəhətdən sağlam olmağa, pis vərdişlərdən uzaq durmağa və Allah yolunda xeyirxah işlər görməyə səbəb olur. Oruc səbrin və mənəviyyatın imtahanı, xeyirxah niyyətlərin ən uyğun formasıdır. İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və ən müqəddəs ay hesab edilir. Onu məcazi mənada "on bir ayın sultanı" da adlandırırlar. Ramazan ayının gecələrindən birində müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim" nazil olub.

Xalqımız əmin-amanlıq, sülh şəraitində, dinamik inkişaf edən bir dövlətdə Ramazan ayını qarşılayır. Bu bayram xalqın milli-mənəvi dəyərlərində, yaddaşlarında yaşayır və zaman-zaman da yaşayacaqdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

## May bayramı günlərində rusiyalı turistlərin MDB ölkələrinə səyahətləri reytinqində Bakı liderdir

May bayramı günlərində rusiyalı turistlərin MDB ölkələrinə səyahətləri reytinqində Bakı liderdir. "TurStat" analitik agentliyi xəbər verir ki, may bayramı günlərində rusiyalı turistlərin MDB və yaxın xaric ölkələrinə səyahətləri reytinqində Azərbaycana, Belarusa və Qazaxıstana turist səfərləri liderlər sırasındadır.




Azərbaycanın paytaxtı Bakı bu siyahıda birinci yerdədir. MDB ölkələrindən olan turistlər şopinq və alqı-satqı məqsədilə turist səfərləri üçün də Bakını seçirlər. Siyahıda ikinci yeri Minsk, üçüncü yeri Nur-Sultan şəhəri tutur. "TurStat" agentliyinin məlumatına görə turistlər may ayında 3-5 günlüyə MDB şəhərlərinə gəlir və səfərin hər günündə qidalanma və yaşayış xərcləri kimi 60-120 dollar sərf edirlər.

## 2350 şəhid üzrə 3413 vərəsəyə də birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanının icrası olaraq, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazirlikdə fəaliyyət göstərən komissiyanın növbəti iclasında daha 2350 şəhid üzrə 3413 vərəsəyə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib.

Onların siyahısı birdəfəlik ödənişin həyata keçirilməsi üçün aidiyyəti quruma göndərilib və birdəfəlik ödəmələrin 7 iş günü ərzində həmin vərəsələrin bank hesablarına köçürülməsi nəzərdə tutulur. Ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Onlardan artıq 70 faizdən çox hissəsinin, yəni 8688 şəhidin 12685 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub.

## Səfir Cavad Cahangirzadə: İran Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib

İran Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və suverenliyinə hörmətlə yanaşıb. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə mətbuata açıqlamasında deyib. Səfir bildirib ki, bu gün İran ilə Azərbaycan arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Birgə iqtisadi layihələrin həyata keçirilməsi hər iki ölkənin iqtisadi inkişafına böyük təkan verir. İki qonşu və dost dövlət arasındakı əlaqələr qarşılıqlı etimada əsaslanır.



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

4 may 2019-cu il

# Paşinyanın Medvedev problemi

## Ermənistan mediası erməni baş nazirə xəbərdarlıq mesajları verdi

***"Kim düşünə bilərdi ki, Yerevanda keçirilən və Ermənistan - Rusiya hökumət başçılarının - Nikol Paşinyanla Dima (Dmitri) Medvedevin iştirak etdikləri Avrasiya hökumətlərarası şurasının iclasında nəinki ölkəmizin baş naziri, eləcə də bütün erməni xalqı təhqir olunacaq. Prinsipcə, Ermənistanın Avrasiya İqtisadi İttifaqında və KTMT-də üzvlüyü artıq şərəf və ləyaqətin aşağılanmasıdır". Bu barədə Ermənistanın "armenianreport" saytının siyasi təhlilçisi Tevos Arşakyan "Dima Ayfonçikin "yox"u və ələ salınan Paşinyanın özünü təmizə çıxarması" başlıqlı məqaləsində yazıb.***



Məqalədə Rusiyanın baş nazirini "eybəcər" adlandıran erməni müəllif onun həmyerliləri tərəfindən müxtəlif ləqəblərlə (Ayfonçik, Yekəbaş, Dima-Tvitter və s.) çağırıldığını da yazıb və onun məlum davranışının heç bir - nə insanlıq, nə də protokol çərçivəyə sığmadığını iddia edib.

### Paşinyan özünü təmizə çıxarmağa çalışsa da...

Əslində, Rusiyanın baş nazirinin Ermənistan hakimiyyətini və bütövlükdə, erməniləri bəlli tərzdə aşağılaması bu xalqın layiq olduğu yerin göstəricisidir. Əbəs deyil ki, ermənilər dünyanın ən oğru və həyasız xalqı kimi elan olunub. Görünür, bu səbəbdən, D.Medvedev ermənilərə müvafiq yerlərini Paşinyanı ələ salaraq göstərib.

Məhz bu məsələdən sonra erməni mediası bütünlüklə Nikol Paşinyana qarşı amansız hücuma keçiblər. Çünki erməni baş nazir rus həmkarının onu ələ salmasını, necə deyərlər, malalamağa çalışıb, yəni ört-basdır etməyə cəhd göstərib.

"Yenicə Facebook-a daxil oluram və gözlərimə inanmıram ki, korrupsiya sisteminin qalıqları belə rahatlıqla sosial şəbəkələrdə qasırğa yarada bilirlər", deyə Paşinyan yazıb. Beləliklə, bütün bunlara rəğmən, erməni siyasi təhlilçisi yazır: "Aydındır ki, Paşinyan pis oyunda yaxşı nəyisə saxlamağa çalışır. Ancaq onda bu məsələ alınmır. Necə ki, başqa məsələlərdə də. Lakin söhbət onun daxili siyasətindən getmir, ondan gedir ki, o, öz əli ilə Rusiyaya imkan verir ki, yalnız onu deyil, həm də bütün Ermənistanı ələ salsın!".

### Moskva ilə münasibətlərə yenidən baxacağı vədini verən, Ermənistanın Avrasiya İqtisadi İttifaqından və KTMT-dən çıxacağını deyən o deyildimi?

Tevos Arşakyan, bəzi xatırlatmaları da edib: "Məgər Yerevana "xaç yürüşü" edərkən, Ermənistanı Rusiyanın diktəsindən xilas edəcəyini bəyan edən, etiraz hərəkatının qələbə qazanacağı halda Moskva ilə münasibətlərə yenidən baxacağı vədini verən, Ermənistanın Avrasiya İqtisadi İttifaqından və KTMT-dən çıxacağını deyən o deyildimi? Etiraf edilməlidir ki, bu iddialar "şimallı böyük qardaşından" usanan erməni cəmiyyətinin ona simpatiyasını artırdı. Nəyi gizlətməliyik ki, bir çox vətəndaşlarımız küçələrə çıxdılar ki, Paşinyana dəstək versinlər - Rusiyadan canlarını qurtarmaq üçün. Lakin Paşinyan öz vədlərini yerinə yetirmədi - biz nəinki Qərbə tərəf bir millimetr də olsa yaxınlaşmadıq, əksinə, daha çox Rusiyanın qucağına sığındıq".

### Paşinyan Ermənistanı Koçaryan və Sarkisyan dövrlərində olduğu kimi Rusiyadan asılı vəziyyətdədir

Erməni müəllif Paşinyanın Dmitri Medvedevlə gecə klublarını gəzməsinə də toxunub: "Axı kim ondan istəmişdi ki, geniş qucaq açmaqla Dima Atfonçiki qəbul etsin? Üstəlik "mədəni proqram" təşkil edib onu gecə klubuna aparsın. Nəyə görə? Paşinyan Ermənistanı Koçaryan və Sarkisyan dövrlərində olduğu kimi Rusiyadan asılı vəziyyətdədir".

Daha bir maraqlı məqam, erməni müəllifinin Dmitri Medvedevi təhqir etməkdə davam etməsi və üstəlik, Azərbaycan faktorundan da yan keçməməsi olub. Belə ki, siyasi yazar burada ermənilərin qatı millətçi olduqlarını da özü bilmədən etiraf edib: "Rusiyanın Azərbaycana silah satışı məsələsini, Moskvanın türklərlə əlaqələrinin möhkəmləndirilməsini sərt şəkildə yekəbaşın (Medvedevi nəzərdə tutub-R.N.) qarşısına qoyması yerinə, Paşinyan ona Yerevanda isti qonaqpərvərlik göstərdi. Nəticədə elə bir cavab aldı ki, reytinqi sürətlə aşağı düşdü".

### Tələb - baş nazir postunu tərk elə və Moskva ilə nə ilə istəsən məşğul ol...

Son zamanlar Rusiya həqiqətən də Ermənistanı özünün vassalı olmaqla yanaşı, həm də nökəri kimi istifadə edir. Əbəs deyil ki, bu günlərdə Rusiya ermənilərin milli hissləri, Ermənistanın suverenliyi kimi anlamları qətiyyən qəbul etmədiyini nümayiş etdirib. Bu baxımdan, erməni müəllif belə anlamların Moskva üçün boş bir şey olduğunu da yazıb.

Müəllif, ukraynalı deputat Mustafa Nayemlə bağlı "Zvartnots" aeroportunda yaşanan insidenti xatırladıb: "Zvartnots"dakı rusiyalı sərhədçilər ukraynalı deputatı bizim ölkəyə buraxmamağa çalışdılar. Sual olunur, niyə Paşinyan hələ də rus "fsbçiləri" ölkə ərazilərimizdən qovulmayıb? Yoxsa ona ölkəsində sərxoş sifətləri görmək çox xoş gəlir? Anlamıram, bu, onun tərəfindən mazoxizmdir, nədir? Yox, əgər onun özünə rusların sado-mazolarından xoşu gəlirsə, bu, onun şəxsi problemidir. Baş nazir postunu tərk elə və Moskva ilə nə ilə istəsən məşğul ol. Lakin biz Ermənistanın vətəndaşları olaraq, onun hakimiyyətə gəlməsini ona görə dəstəkləməmişik ki, Rusiya tərəfindən ələ salınaq? Əgər o qısa zamanda bunu anlamasa və buraxdığı səhvləri düzəltməsə, onda ermənilər növbəti dəfə dünyada sübut etməyə çalışacaqlar ki, buranın sahibi kimdir. Bunu necə göstərdiyimizi isə elə Paşinyanın özü 2018-ci ilin aprelində artıq görüb".

Beləliklə, fakt budur ki, Paşinyanın reytinqinin daha aşağı vəziyyətə düşməsi və xalqın gözü qarşısında Rusiya tərəfindən ipli kukla kimi oynadılması özünün pik həddinə çatıb. Hətta onu da ehtimal etmək mümkündür ki, Kreml Paşinyanı dalana dirəməklə, yenidən köhnə hakimiyyət adamlarını Ermənistanda iqtidara gətirməyi planlaşdırır. Bu baxımdan, erməni xalqında Paşinyana qarşı qıcığın yaranması üçün hər cür vasitədən istifadə edir. Eləcə də Paşinyanın və ermənilərin təhqir olunması reallığı da bu məsələdə öz təsdiqini tapır.

**Rövşən NURƏDDİNOĞLU**

# Ermənistan parlamentində toyuqlu etiraz

Ermənistanın "Aazanq" vətəndaş təşəbbüs qrupu Ermənistan parlamentinin binası qarşısında vergi problemlərinə etiraz olaraq etiraz aksiyası keçirib. SİA aysor.ama istinadən xəbər verir ki, tə.şəbbüs qrupu etirazlarını özünəməxsus şəkildə keçiriblər. Belə ki, onlar parlamentin həyətinə toyuqlar buraxıblar. "Biz, hesab edirik ki, hökumət Ermənistan vətəndaşlarını gic yerinə qoyub", deyən etirazçılar bildiriblər ki, vergi qanunvericiliyi layihəsi sadə insanların deyil, müəyyən şəxslərin maraqlarına xidmət edir. Məhz yüksək vergilər sayəsində hakimiyyət çevrələri daha yüksək maaş alacaqlar.



Təşəbbüs qrupu erməni xalqına müraciət edərək, böyük supermarketlərdən deyil, məhəllələrdə fəaliyyət göstərən kiçik dükanlardan alver etməyə səsləyib və bubunla sadə xalqın bir-birinin yanında olması görüntüsünü hökumətin diqqətinə çatdırılmalı olduğunu bildirib.

# "Rusiya çalışır ki, bu nüfuzun qarşısını alsın"

"Düşünürəm ki, rəsmi görüşlərə məhz Rusiyanın baş naziri Dimitri Medvedevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündən sonra start verildi. Təbii ki, bu görüşlərdə də əsas məsələ bir daha Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü kimi Ermənistana müəyyən təlimatların verilməsi təşkil edir". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib.

"Hesab edirəm ki, mayın 29-da Rusiya prezidenti Vladimir Putinlə Ermənistan baş naziri Nikol Paşinyan arasında baş tutacaq görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də mühüm söhbətlər aparılmalıdır. Çünki regional problemlərdən ən mühümü məhz Dağlıq Qarabağ münaqişəsidir. Yəqin ki NATO-Rusiya münasibətləri burada öz əksini tapacaq. Bildiyiniz kimi, Türkiyə-Ermənistan sərhədi NATO-Rusiya sərhədidir. Buna görə də həm iqtisadi, siyasi cəhətdən,



həm də hərbi cəhətdən müvafiq istiqamətdə bu görüşdə yəqin ki söhbətlər aparılacaqdır. Çünki Ermənistanda nə qədər ki Qərbin nüfuzu artır Rusiya da çalışır ki, bu nüfuzun qarşısını alsın və müəyyən addımlar atsın. Təbii ki, regional problemlər və Azərbaycan və Ermənistan arasında münasibətlər də bu görüşdə mütləq şəkildə müzakirə obyekti olacaqdır"-deyə, Arzu Nağıyev fikirlərini tamamlayıb.

**Ceyhun Rasimoğlu**

# Dağlıq Qarabağ münaqişəsi Vaşinqtonda müzakirə olunacaq

***ABŞ-ın dövlət katibinin köməkçisi Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin iştirakı ilə Vaşinqtonda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı görüşün təşkil edilməsi ideyası ilə çıxış edib. Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fəallıq göstərdiyi bir vaxtda ABŞ-ın XİN rəhbərlərinin görüşünü təşkil etməsi nədən irəli gəlir? Söhbət etdiyimiz müsahiblərimiz bunun səbəbini ABŞ-ın ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olaraq prosesdə fəallıq göstərməyə çalışması ilə əlaqələndirdilər.***

### Politoloq Qabil Hüseynli: "Status-kvonun dəyişməsində ən çox maraqlı olan tərəf ABŞ-dır"



- ATƏT-in Minsk Qrupunun həmsədrləri içərisində ən fəalı olanı və problemin sülh yolu ilə həllini istəyəni ABŞ-dır. Yəni bunu nə Fransa, nə də Rusiya istəyir. Bu gün status-kvonun dəyişməsində ən çox maraqlı olan tərəf ABŞ-dır. Çünki ABŞ-ın geostrateji maraqları tələb edir ki, Cənubi Qafqazda həm bu maraqları reallaşdırmaq, həm də enerji və nəqliyyat dəhlizlərindən istifadə etmənin asanlaşdırılması üçün bu münaqişə mütləq həll edilsin. Ona görə də, ABŞ-ın dövlət katibinin köməkçisinin fikirlərini səmimi sayıram. Rusiya bu məsələdə səmimi deyil. Çünki Rusiya uzun müddətdir ki, Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş vəziyyətdə saxlanılmasına çalışır. Çünki Rusiya birtərəfli qaydada Ermənistanı müdafiə edir. Əgər Rusiyanın bölgədə təsiri və nüfuz dairəsi olmasaydı və həmsədrlərdən biri kimi çıxış etməsəydi bu proseslər daha sürətlə qabağa gedərdi, bəlkə də Dağlıq Qarabağ münaqişəsi indi həllini tapmışdır.



### Politoloq Elxan Şahinoğlu: "Ermənistan Rusiyanın əmrlərini yerinə yetirəcək"

- İlk öncə, hələ ki, sözügedən görüş baş tutmayıb. Sadəcə olaraq, bu, bir istəkdir. Yəni Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin iştirakı ilə Vaşinqtonda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı görüşün baş tutub-tutmayacağı da sual altındadır. ABŞ istəmir ki, Rusiya tək başına vasitəçilik etsin. Bu, anlaşılandır. Amma hətta bu görüş olsa belə, bu görüşdən real nəticə gözləmirəm. Çünki ABŞ illərdir bu münaqişənin həll ilə məşğul olmur, baxmayaraq ki, 3 həmsədrdən biridir. Deməli olar ki, əsas təşəbbüslər Rusiyadan gəlir. Bizdə istəyərdik ki, ABŞ fəallaşsın. Amma ABŞ hansısa bir plan ortaya qoysa, bunun qəbul olunması çətindir. Çünki Ermənistan Rusiyanın əmrlərini yerinə yetirəcək, Rusiyada imkan verməyəcək ki, ABŞ-ın təşəbbüsü Cənubi Qafqazda reallaşsın. Əgər Rusiya tərəfi bu məsələdə səmimi olsaydı 25 ildə Dağlıq Qarabağ münaqişəsi həll olunardı. Yəni Rusiya Ermənistan hakimiyyətinə təsir etmədiyi üçün Dağlıq Qarabağ münaqişəsinin həlli uzanır.

**GÜLYANƏ**

# Ağdamda "Vətənin müdafiəsinə hazıram!" devizi altında kütləvi tədbir keçirilib

Mayın 3-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) Azərbaycan Gənclər Fondu və Ağdam Rayon İcra Hakimiyyəti ilə birgə Quzanlı qəsəbəsində "Vətənin müdafiəsinə hazıram!" devizi altında kütləvi tədbir keçirib. SİA-nın xəbərinə görə, tədbir Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilib. Xidmət rəisinin müavini, general-mayor Şahvələd Əliyev, rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov və qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar. Dövlət Himninin ifası ilə başlayan orta məktəblərin yuxarı sinif şagirdlərinin, gənclərin, ictimaiyyətin, şəhid ailələri nümayəndələrinin, veteranların və rayon hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə Mədəniyyət Evində davam etdirilən tədbirdə iştirakçılar əvvəlcə Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla anıblar.



Tədbirdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov çıxış edərək, Vətənə məhəbbət, milli qürur hissi ilə yaşayan gəncliyin yetişdirilməsi istiqamətində tədbirin vacibliyini diqqətə çatdırıb. Xidmət tərəfindən Ağdam məktəbliləri arasında "Ümummilli Lider Heydər Əliyev müstəqil dövlətçiliyimizin banisidir" mövzusunda yazı müsabiqəsinin keçirilməsinin xüsusi əhəmiyyətini vurğulayıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, general-mayor Şahvələd Əliyev Ulu Öndərin dövlətçiliyimiz üçün misilsiz xidmətlərindən söz açıb. Heydər Əliyevin Azərbaycanı hər cür qəsdlərdən qoruyan, möhkəmliyini, dayanıqlığını təmin edən, onun hərtərəfli inkişafı üçün iqtisadi, siyasi, hüquqi zəmin hazırlayan böyük strateq, müdrik rəhbər kimi əbədiyaşarlıq qazandığını bildirib. Qeyd edib ki, ən başlıcası Heydər Əliyevin siyasi kursu ölkədə uğurla davam etdirilir. Daha sonra Xidmət tərəfindən gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində görülən işlərdən danışıb. Hazırda müharibə şəraitində olan ölkəmizdə, Prezident İlham Əliyevin rəhbərliyi altında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən həyata keçirilən səfərbərlik hazırlığı və müddətli həqiqi hərbi xidmətə çağırış işinin təşkil istiqamətində əsaslı tədbirlər həyata keçirildiyini vurğulayıb.

Gənclər Fondunun şöbə müdiri Ramil Məmmədov ölkəmizdə həyata keçirilən gənclər siyasətindən bəhs edib. Ümummilli Liderin müasir gənclər üçün örnək olan həyatı və fəaliyyəti barədə fikirlərini bölüşüb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü Emin Həsənli Ulu Öndər Heydər Əliyevin hərb tariximizi, ordu quruculuğu təcrübəsini yeni bir səviyyəyə qaldırdığını, müasir ordumuzun əsasını qoyduğunu, Azərbaycanın müstəqilliyini qorumağa qadir olan Silahlı Qüvvələrin memarına çevrildiyini qeyd edib.

Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin Vətənin müdafiəsi məsələsində qətiyyətli mövqeyi Vətəni müdafiə borcunun hər bir vətəndaşın əqidəsinə, mənəvi dəyərinə çevrilməsinə təkan verən güclü bir qüvvədir.

Tədbirdə Ağdam rayon orta məktəb şagirdləri arasında "Ümummilli Lider Heydər Əliyev müstəqil dövlətçiliyimizin banisidir" mövzusunda keçirilmiş yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb. Münsiflər heyətinin qərarına əsasən 1-ci yerə Ağdam rayon 2 saylı tam orta məktəbin şagirdi Sərxan Səfərov, 2-ci yerə Ağdam rayon 18 saylı köçkün tam orta məktəbin şagirdi Elnur Hüseynov, 3-cü yerə isə Ağdam rayon İmamqulubəyli kənd tam orta məktəbin şagirdi Nihad İbrahimov layiq görülüblər. Qaliblərə müvafiq diplomlar və mükafatlar təqdim edilib. Sonda Ağdam rayon özfəaliyyət dərnəyi və məktəblilərin vətənpərvərlik ruhunda hazırladıqları dolğun ədəbi-bədii proqram təqdim olunub.

# "Ötən il BMT və Azərbaycanın birgə icra etdiyi layihələrə 5 milyon dollarıdək vəsait xərclənib"



Keçən il BMT və Azərbaycan tərəfindən icra edilən birgə layihələrə 4 milyon 998,5 min ABŞ dolları məbləğində vəsait xərclənib. Bu vəsait "2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədi" çərçivəsində birinci strateji sahə üzrə sərf olunub. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev mayın 3-də Bakıda keçirilən 2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədi İstiqamətləndirici Komitənin iclasında deyib. Nazir qeyd edib ki, 3 strateji sahəni əhatə edən sənəd çərçivəsində 71,9 milyon dolların ayrılması nəzərdə tutulub. İndiyədək isə bu vəsaitin 68,2 milyon dolları, yəni 95 faizi xərclənib.

# "Azərbaycan-Gürcüstan sərhədləri ilə bağlı müştərək komissiya yaxın vaxtlarda fəaliyyətə başlayacaq"



"Biz Azərbaycan tərəfi ilə mütəmadi danışıqlar aparırıq və yaxın vaxtlarda sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı müştərək komissiya fəaliyyətə başlayacaq." Bu sözləri Gürcüstanın xarici işlər naziri David Zalkaliani bildirib. Nazir deyib: "Məsələ ilə bağlı azərbaycanlı həmkarım ilə mütəmadi əlaqə saxlayırıq. Biz artıq bir sıra məsələlərdə, o cümlədən sərhədlə bağlı müştərək komissiyanın işinin bərpası barədə razılıq əldə etmişik".

D.Zalkaliani son günlər "Keşikçidağ" məbədi (David Qareci) ətrafında gedən proseslərə də münasibət bildirib: "Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır və "Keşikçidağ" məbəd kompleksi ilə bağlı məsələ çox həssas olduğu üçün biz bu cür problemlərə həssaslıqla yanaşırıq".

# "İran ABŞ ilə hərbi toqquşmanı istisna etmir"



"İran ABŞ ilə hərbi toqquşmanı istisna etmir." Bu fikri İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Böyük Britaniyanın "The Independent" qəzetinə verdiyi müsahibədə deyib. O bildirib ki, İran hərbi toqquşmaya can atmır. Lakin ABŞ Fars körfəzində təxribat xarakterli hərbi əməliyyatlar həyata keçirir ki, bu da hərbi toqquşma ehtimalını artırır.

M.C.Zərif 2016-cı ildə Fars körfəzində təxribat törətməyə çalışan bir neçə ABŞ hərbçisinin İranın dəniz piyadaları tərəfindən həbs edilməsini misal göstərib. Bildirib ki, həm dövrdə İran möhkəm irадə nümayiş etdirərək təxribata uymadı və ABŞ əsgərlərini azad etdi.

Xatırladaq ki, ABŞ İranı dünya bazarına neft çıxarmaq imkanlarını məhdudlaşdırdıqdan sonra İran İslam İnqilabı Keşikçiləri Korpusu bəyan edib ki, əgər İran dünya bazarına neft çıxara bilməsə, onda Hörmüz boğazını bağlayaraq Körfəz ölkələrini də dünya bazarına neft çıxarmaq imkanından məhrum edəcək. Hörmüz boğazı Fars körfəzi ilə Hind okeanını birləşdirir. ABŞ-ın müttəfiqləri olan Körfəz ölkələri məhz bu boğaz vasitəsilə istehsal etdikləri nefti dünya bazarına çıxarırlar.

# Əli İnsanov - başına kəfən salmış qisasçı qoca...

## *Yaxud, gözünü qan örtmüş siyasətçi gəlir*



***Hələ həbsdən çıxar-çıxmaz xarici ölkə və qurumlar qarşısında dərhal baş əyərək, əslində, həbsdə olduğu müddətdə dəyişilmədiyini, nə qədər hikkəli, qisasçı, o cümlədən, anti-humanist ünsür olduğunu sübuta yetirən sabiq səhiyyə naziri Əli İnsanov indi də özünü necə deyərlər, siyasi arenada görməyə başlayıb. Hətta o özünü o qədər siyasətdə görür ki, başında hazır vəziyyətdə sarınmış kəfənini belə hiss etmir. Qoca və qoca olduqca da ağlını itirmiş birinin sərsəmləmələri isə ictimai rəydə, ümumiyyətlə, ciddi qəbul olunmur. Bir ayağı burda, o biri ayağı da gorda olan birinin bu qədər güvənli şəkildə ortalığa çıxıb vargəl etməsi arxasında isə bir sıra əmmalar dayanır...***

Əmmalardan biri budur ki, Ə.İnsanov həbsdən çıxarkən dövlətin humanizm siyasətinə deyil, xarici qurum və təşkilatlara, hətta Amerikanın dövlət başçısına minnətdarlıq etməsi artıq onun siyasi fahişələr sırasında yer almasını təsdiqlədi - yəni satıldığını məhz həmin ifadələrlə etiraf etdi.

### Radikallar indi onun maliyyə imkanlarını əldə edib, siyasi cəhətdən kökəlməyə can atırlar

Digər əmma isə, onun həbsdən çıxarkən, orta statistik ailənin bir illik azuqə xərclərini belə kölgədə qoyan bahalı brend geyimləri oldu. Əcəba, əgər o, xəyanət etməmişdisə, dövlət malını çapıb-talamamışdısa, başından ayağınadək qiyməti 50 min dollara olan brend geyimləri hansı vəsaitlərlə əldə edib? Bütün bunlar öz yerində və zaman-zaman həmin məsələlərə də geri dönəcəyik.

Ancaq onun qisasçılıq hissləri ilə alışıb-yanması və siyasətə gəlmək iddiası, həqiqətən də, bir çoxlarında maraq doğurur. Sual edilir ki, ona bu məsələdə dəstək göstərənlər kimlərdir? Əlbəttə, bu sualın cavabını uzun-uzadı şəkildə arayıb-axtarmağa da ehtiyac-filan yoxdur. Cavab bəsitdir - radikal, dağıdıcı təfəkkürə malik anti-milli müxalifət! Biz xatırlaya bilərik ki, Ə.İnsanovu hazırda daha çox özünə cəlb etməyə çalışanlar sırasında bilavasitə ölkədəki sabitliyin, əmin-amanlığın, inkişafın pozulmasını istəyən ünsürlər dayanırlar. Burada "Milli Şura"-AXCP cütlüyünü və s. siyasi çevrələri göstərmək olar. Maraq isə budur ki, Azərbaycanda vətəndaş qarşıdurması yaransın və həmin qarşıdurmaların yaradılması üçün erməni lobbisinin maliyyələşdirdiyi xarici qurumlar daha çox pul-para səpələsinlər. Əlbəttə ki, qazanc mənbəyi kimi elə Ə.İnsanovdan da maksimum qaydada istifadə olunsun. Bu, heç də təəccüblü məsələ deyil və əgər bir vaxtlar sabiq səhiyyə naziri ilə bağlı bir kəlmə də danışmayan Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və s. radikallar indi onun maliyyə imkanlarını əldə edib, siyasi cəhətdən kökəlməyə can atırlar. Ancaq qoca və əldən düşmüş "inəyin" süd verməsi də inandırıcı görünmür...

### Belə olan halda, başına dolaşmış kəfəni onu siyasi məzarlığa doğru sürətlə itələməyə, sürükləməyə başlayır

Fəqət, sifariş verilib və bu sifarişin kökündə xarici qüvvələr daha çox cənfəşanlıq edirlər. Ə.İnsanov isə bir reallığı, aksiomanı anlaya bilmir ki, onun daxilini parçalayan və ölümünü sürətləndirən qisasçılıq siyasəti fəlakəti daha da yaxınlaşdırır. Daha dəqiq desək, onun üzündəki cəhənnəmlik siması özü-özlüyündə hər bir gerçəkliyi göstərir. Çünki müdrik qocaların üzlərində nur olar və onlar sülh, barış, sabitlik üçün həyat sürərlər, cəhənnəmlik Ə.İnsanov isə öz davranışları, diş qıcamaları ilə yalnız müdrik olmadığını deyil, həm də axmaq və sərsəm qoca obrazını da açıq-aşkar canlandırır. Belə olan halda, başına dolaşmış kəfəni onu siyasi məzarlığa doğru sürətlə itələməyə, sürükləməyə başlayır.

Bu gün onun başında ağıl və düşüncəsi olsaydı, hazırda dəstək aldığı dağıdıcı müxalifətin qısa zamanda onu dar ayaqda qoyub, sözün əsl mənasında, məhv edəcəyini də anlayardı. Çünki həmin müxalifət də ermənilərin sifarişlərini həyata keçirir, Ə.İnsanovu isə özünə ehtiyat variant olaraq saxlayır. Söz yox ki, elə Ə.İnsanovun özü də erməni lobbisinin maraq dairəsindədir və bu reallıq özünü daha çox göstərməyə başlayıb. Lakin fakt, faktlığında qalır - bütün hallarda siyasətə qisasçı qoca gəlir və onun missiyası ermənilərlə, ermənilərə nökərçilik edənlərlə birgə qisas almaqdan ibarətdir. Amma boş yerə özünü dağa-daşa çırpır. Çünki alınmayacaq, ona görə alınmayacaq ki, müdrik və uzaqgörən Azərbaycan xalqı belə ünsürləri çoxdan öz dəftərindən silərək, bir kənara atıb.

**Rövşən NURƏDDİNOĞLU**

# Müxaliftin uğursuz mitinq şousu

## *Kaş bunu anlaya bilərdilər*

***Son günlər dağıdıcı müxalifətin bəzi texnoloqları may-iyun aylarında mitinqlərə başlayacaqları barədə çıxışlar edirlər. Hətta Müsavat başqanı Arif Hacılı iddia edib ki, ümumi müxalifətin respublika mitinqi təşkil olunacaq. Sual olunur: bir-birinə düşmən kəsilən Müsavat - "Milli Şura", Müsavat-AXCP qarşıdurması fonunda Əli Kərimli, Cəmil Həsənli, Sərdar Cəlaloğlu və digərləri Arif Hacılının bu təklifinə dəstək verə biləcəkləri nə dərəcədə inandırıcıdır? Axı bir dəfə "bir dam altında" mitinq keçirdiniz, nə oldu? Pərən-pərən, bir-birinizə qurşaqdan aşağı söyüşlər, təhqirlər. Abırsızlıq bu qədər də olmaz. Dərd, xaricdə olan havadarlarına bir mesajdır ki, biz də varıq. Bununla da xaricdə olan havadarlarından maliyyə yardımları alaraq, özlərinin ciblərini doldurmağa ümid bəsləyirlər.***



Digər bir məsələ isə, mitinq keçirmək həvəsinə adətkar olan müxalifət yazqabağı şou göstərmək istəyi ilə varlıqlarını nümayiş etdirmək istəsə də, heç bir şeyə nail olmayacaqlar. Ancaq bunu anlaya bilsəydilər..., mayın 5-də "Milli Şura" deyilən qondarma qurum mitinq keçirəcəklərini bəyan etməzdilər. Hətta ənənəvi ampluasından çıxış edən AXCP sədri Ə.Kərimli mitinqin iştirakçılarının sayının on minlərlə olacağı barədə başından böyük açıqlamalarla çıxış edib.

### Hafiz Hacıyev: "Əxlaqsız və maşennik Əli Kərimli ailəsini qoruyub-saxlaya bilmir, hansı üzlə xalqı mitinqə çağırır?

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev satılan, əxlaqsız AXCP sədri Ə.Kərimlinin mayın 5-də mitinq keçirmək iddiasına düşmənindən əsəbləşərək bildirib ki, bu, o Kərimov Əlidir ki, nə mənəviyyat, nə əxlaq deyilən milli dəyərlərdən uzaqdır: "Belə olan halda özünü, ailəsini qoruyub-saxlaya bilmirsən, sən hansı əsasla xalqı mitinqə çağırırsan? Özü də səni dəstəkləməyənləri terrorçu adlandırırsan. Əsl terrorçu, cinayətkar sən Kərimov Əli özünsən. Sənə cinayət işi açılmalıdır".

H.Hacıyev, həmçinin Ə.Kərimlinin yanında fırlanan Cəmil Həsənlini də tənqid edərək bildirib ki, o qoca təlxəkdir: "Ə.Kərimlinin yanında bir təlxək var. Qızını erməniyə verən qoca təlxək. Bir dəfə onu döyüb burdan qovdum. Bunlar görür ki, əlləri hər yerdən kəsilir, arxaları ilə gedən yoxdu başlayırlar təhqir etməyə. Həsənov Cəmil, sən şərəfsizin başında duran, namussuz adamsan. Qızını erməniyə vermisən. İndi ermənilərin tapşırığı ilə Azərbaycanda çevriliş etmək istəyirsən. Sən buna nail ola bilməyəcəksən. Çünki bu gün ölkə güclü lider tərəfindən idarə olunur. Çünki xalqla lider birliyi var".

### Suyu bulandırma cəhdlərinin perspektivi yoxdur

Zaman-zaman Azərbaycana qarşı güclənən və səngiyən çirkin qarayaxma kampaniyasının, eləcə də sabitliyin pozulmasına edilən davamlı cəhdlərin arxasında da dövlətimizin heç bir qüvvənin qarşısında əyilməməsi, öz mövqeyini qətiyyətlə müdafiə etməsi, ardıcıl və prinsipial siyasətidir. Odur ki, sifarişlə çalışan dağıdıcı qüvvələr nə əvvəllər öz qərəzli planlarını reallaşdıra biliblər, nə də bundan sonra çirkin niyyətlərinə nail ola biləcəklər. Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var. Odur ki, bulanıq suda balıq tutmaq istəyənlər bilməlidir ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icracısına çevirə bilməyəcəklər. Ə.Kərimli, L.Yunus, X.İsmayıl, N.Adilov və bu kimi satıb-satılan ünsürlər həmin xarici qüvvələr tərəfindən bir əlcək kimi istifadə olunub kənara atılır. Bunu anlamaq lazımdır, belə də olub və olmaqdadır. Çünki onların əsl mahiyyəti alət olmaqdır.

**R.HÜSEYNOVA**

# Ölkə ərazisində yağış yağacaq



Azərbaycanda mayın 4-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən gecə və axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 13-16°, gündüz 19-24° isti olacaq. Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, mayın 4-də Abşeron yarımadasında arabir güclənən şimal-qərb küləyi fonunda ötən günlə müqayisədə temperaturun aşağı enəcəyi gözlənilir ki, bu da bəzi meteohəssas insanlarda diskomfort hissi yarada bilər. Naxçıvan Muxtar Respublikasında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, şimşək çaxanda arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 20-25° isti olacağı proqnozlaşdırılır. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə lokal leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq.

Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12° isti, gündüz 13-17° isti olacağı bildirilir. Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-16°, gündüz 20-25° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə lokal leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 18-23° isti, dağlarda gecə 4-9°, gündüz 10-15° isti olacağı ehtimalı var.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dağlıq ərazilərdə dolu düşəcəyi ehtimalı var. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-15°, gündüz 21-26° isti, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

# Həkim - pasient münasibətləri, klonlaşdırma və insan hüquqları

***Bu gün Azərbaycanda həkim və pasiyentin qarşılıqlı münasibətlərinin xarakterində yetərincə sürətli dəyişikliklər baş verməkdədir. Bu dəyişikliklərin mahiyyəti - paternalist adı alan və atanın öz fərasətsiz övladına baxdığı kimi, həkimin də pasiyentə elə bil ki, yuxarıdan aşağı baxdığı qarşılıqlı münasibətlər tipindən uzaqlaşmaqdadır. Bu zaman pasiyent onun rifahının məhz nədən ibarət olduğunu şəxsən özü müəyyənləşdirən həkimin göstərişlərinə yalnız kor-koranə əməl etmək məcburiyyətində qalır. D.S.Jamarın göstərdiyi kimi, bu paternalist modelin əvəzinə elə münasibətlər tipi gəlir ki, bu tip üçün iki bərabərhüquqlu partnyor - həkim və pasiyent arasında əməkdaşlıq və dialoq səciyyəvidir. Bu, pasiyentə müstəqil, muxtar şəxsiyyət kimi bəslənilən münasibətə əsaslanır. Pasiyent müəyyən hüquqlara malikdir ki, onların da pozulması əxlaqi, bəlkə də hüquqi normalardan geri çəkilmə deməkdir.***

Bunun nəticəsi, hər şeydən öncə, pasiyentlər tərəfindən həkimlərə olan tələblərin artmasıdır. Son vaxtlar pasiyentlərin və ya onların qohumlarının həkimlərin qeyri-peşəkar hərəkətlərinə görə onlara dəyən maddi və mənəvi ziyanın ödənilməsi haqqında məhkəmələrə müraciət etdikləri və hətta bu məhkəmə işlərini udduqları kimi hadisələr tez-tez baş verir.

Bütün bu problemlər bioetika adlandırılan yeni elm sahəsinin tədqiqat obyektidir. Hazırda bütün dünyada sürətlə inkişaf edən bioetika (bəzən onu biotəbabət etikası da adlandırırlar) həm tətbiqi səhiyyə sahəsində, həm də yeni tibbi texnologiyalar sahəsində yaranan problemli durumların təkcə öyrənilməsi ilə məşğul deyil, eləcə də bunları həll etmək üçün müxtəlif yollar və vasitələr işləyir.

Bununla əlaqədar olaraq, klonlaşdırma yolu ilə dünyaya gələn birinci heyvan haqqında ilk məlumatların yayılması halı da maraqlıdır. O zaman ABŞ-dakı Bioetika üzrə Milli Konsultativ Komissiyaya bu texnologiyanın insana tətbiq edilməsi vaxtı yarana bilən sosial-etik problemlərin təhlili ilə bağlı üç ay ərzində xüsusi məruzə hazırlamaq tapşırılmışdı. Q.Lizin sözlərinə görə, Komissiyaya edilən tövsiyələrin əsasını klonlaşdırma sahəsində işlərin hüquqi nizamlanması üzrə tədbirlər təşkil edirdi.

A.Mustafayeva yazır: “Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində yaradılmış Bioetika üzrə Azərbaycan Milli Komitəsi kimi təşkilatlar, əlbəttə ki, nəsə etməyə çalışırlar, lakin onların qəbul edəcəkləri qərarlar ən yaxşı halda yalnız mənəvi nüfuz qüvvəsinə malik ola bilər.

Bununla belə, həm Azərbaycan cəmiyyətində, həm də kütləvi informasiya vasitələrimizdə bioetika problemləri getdikcə daha çox və əsasən də yetərincə şiddətli müzakirələr obyektinə çevrilir. Azərbaycan Respublikasında mövcud olan donor orqan və toxumalarının tədarükü və istifadəsi təcrübəsinin mənəvi baxımdan nə dərəcədə məqbul olub-olmaması ilə bağlı illərdir ki, mübahisələr getməkdədir. Biologiya və təbabətin nailiyyətlərinin tətbiqi ilə əlaqədar insan hüquqlarının və ləyaqətinin müdafiəsi haqqında Konvensiyanın (İnsan hüquqları və biotəbabət haqqında Konvensiya) toxunduğu problemlər dövrəsi, ən ümumi şəkildə belə görünür. 1990-cı ilin əvvəllərindən etibarən üzərində işə başlanılan bu mühüm sənəd Avropa Şurasının Parlament Assambleyası (ali nümayəndəli orqan) tərəfindən 1996-cı ilin noyabrında qəbul edildi. İlk öncə layihənin hazırlanması xüsusi olaraq yaradılmış Komitə çərçivəsində aparılırdı. Bu qurum 1993-cü ildə Bioetika üzrə rəhbər komitəyə çevrildi.

Əvvəlcə bioetika üzrə konvensiyadan danışılırdı, lakin yekun mətndə bu terminin istifadəsindən imtina etmək qərar alındı (hərçənd ki, məişətdə, qeyri-rəsmi danışıqda onu məhz bu cür adlandırmaqda davam edirlər). Belə bir dəyişikliyin əsas səbəblərindən biri ondan ibarətdir ki, Konvensiya hüquqi sənəddir və ona görə də orada “etika” sözünün işlədilməsi yanlış fikirlərə səbəb ola bilər. Başqa sözlə, Konvensiyada təsbit olunmuş normalar əxlaqi çağırış qüvvəsinə malik deyil - ona qoşulan hər bir dövlət bu normaları öz qanunvericiliyinə tətbiq etmək öhdəliyi götürür.

Bundan başqa, dövlətlər onlan sadəcə bəyan etməməli, həm də bu normaların gerçək icrasını təmin etməlidirlər. Bu, Azərbaycan Respublikası üçün xüsusilə aktualdır. Fikrimizcə, Avropa Şurasının müvafiq instansiyaları Konvensiyanı imzalayan ölkələrin hər birində onun normalarına əməl olunmasına nəzarət etmək hüququna malikdir.

Hazırda Avropa Şurasının üzvü olan ölkələrdən 20-dən çoxu bu Konvensiyaya qoşulmuşdur. Azərbaycan Respublikası hələ onu imzalamayıb, lakin buna səbəb hansısa prinsipial etirazlar deyil, sadəcə, yerli strukturların fəaliyyətsizlikləridir. Bizə məlum olduğuna görə, bu məsələdə maraqlı təşkilatların qanunvericiliyində onların əks olunmasına diqqət yetirmək bir sıra maddələri şərh etmək yerinə düşərdi.

Konvensiyanın 1-ci maddəsində təsbit edilən məqsəd və vəzifələr, bütövlükdə, Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsində “İnsan, onun hüquq və azadlıqları ali dəyərdir” və 21-ci maddəsində: “Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç nə onun azaldılması üçün əsas ola bilməz” yazılan müddəalarla uzlaşır. A.Mustafayeva yazır: “Bununla belə, Konstitusiyamızdan fərqli olaraq, Konvensiya hər bir insanın hüquq, azadlıq və ləyaqəti ilə yanaşı, onun bütövlüyünün də qorunmasının vacibliyinə xüsusi diqqət yetirir ki, bu da biologiya və təbabət sahələrində prinsipial əhəmiyyətə malikdir.

Beləliklə, müasir genetikanın sürətli inkişafı ilə əlaqadar olaraq qeyd etmək lazımdır ki, insanın bütövlüyünün qorunması tələbləri onun genetik strukturuna da şamil edilir bu struktura, birincisi, onun şəxsi rifahı naminə, ikincisi isə onun könüllü və şüurlu razılığı ilə təsir göstərmək olar. Təxminən elə bu, insan beyninə və psixikasına olan müasir təsir imkanlarına da aiddir.

mız Konvensiyaya qoşulmağın lehinədir. Lakin məhz bu sahədə siyasəti işləyib-hazırlayan və gerçəkləşdirən dövlət orqanının olmaması Konvensiyanın imzalanmasına başlıca əngəllərdən biridir.

Bu zaman nəzərə almaq lazımdır ki, ölkəmizdə qüvvədə olan qanunvericiliyə uyğun olaraq, Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələr və sazişlərin daxili qanunlar qarşısında prioritetliyi var. Bu, o deməkdir ki, əvvəla, qanunvericiliyimizdə müvafiq normaların olmadığı hallarda beynəlxalq normalar Azərbaycan Respublikasının ərazisində birbaşa təsirə malikdir. İkincisi, əgər daxili qanunvericiliyin bu və ya digər norması beynəlxalq-hüquqi norma ilə ziddiyyət təşkil edirsə, onda beynəlxalq normalar əsas götürülür.

Avropa Şurasının Bioetika üzrə Konvensiyasının prinsipial vacibliyini, habelə Azərbaycan Respublikasının bu təşkilata daxil olması ilə onun ölkəmizdə necə yerinə yetirilməsinin beynəlxalq səviyyədə yoxlanılması üçün hüquqi bazanın yaranması faktını nəzərə almaqla, ilk növbədə, sənədin prinsipial müddəalarının təfsirinə və Azərbaycan

Konvensiyanın insanın prioritetliyini müəyyənləşdirən 2-ci maddəsinə əsasən, hətta ən cəzbedici elmi nəticələr almaq perspektivi də insanın razılığı olmadan bu nəticələr naminə eksperimentlər aparılmasına əsas vermir.

Konvensiyanın hansısa tibbi müdaxilə üçün razılıq alınmasının zəruriliyini ehtiva edən 5-ci maddəsi xüsusi diqqətə layiqdir. Məsələ ondadır ki, “Vətəndaşların sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun mövcud redaksiyasında tibbi müdaxilənin zəruri ilkin şərti olaraq vətəndaşın razılığı göstərilir. Burada “müdaxilə” sözü altında diaqnostika, profilaktika, müalicə, reabilitasiya və tədqiqat məqsədilə insana edilən təsir başa düşülür.

Konvensiyada əksini tapan norma daha ciddidir, çünki o, sadə bir razılıq deyildir, könüllü və məlumatlandırılmış razılıq tələb olunur. Könüllülük o deməkdir ki, aldatma, məlumatın gizlədilməsi, manipulyasiya (məsələn, əgər razılığın əvəzi olaraq maddi cəhətdən haqq təklif olunarsa) və ya məcburiyyət yolu ilə alınan razılıq qanuni sayıla bilməz. Razılıq o halda məlumatlandırılmış sayıla bilər ki, razılığı verən şəxsə nəzərdə tutulan müdaxilənin mənası, hansı məqsədlə aparılması, bu müdaxilənin onun üçün hansı riski doğuracağı və həmin müdaxilənin nə kimi mümkün alternativləri onun başa düşəcəyi dildə izah edilməlidir. Konvensiyanın bacarığı olmayan şəxslərin razılığına həsr olunan 6-cı maddəsində də Azərbaycan qanunvericiliyində olmayan normalar mövcuddur. “Vətəndaşların sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 32-ci maddəsindəki müvafiq müddəalar bacarığı olmayan şəxslərdən, başqa sözlə, 15 yaşına qədər uşaqlardan, qanunla iş bacarığı olmayan kimi tanınanlardan və ya faktiki iş bacarığı olmayanlardan razılıq alınmasını nəzərdə tutmur. Bu normanın hüquqi tərəfindən daha çox, əxlaqi səciyyəsi var - burada yalnız imkan daxilində iş bacarığı olmayan şəxsin özünün fikrinin nəzərə alınması arzusu ifadə olunur. Lakin qeyd edək ki, qanunla iş bacarığı olmayan şəxslər kimi qəbul edilənlərə münasibətdə bu norma Konvensiyada tam ciddi təsbit edilmişdir. Yeri gəlmişkən, Konvensiyanın 7-ci maddəsində psixi pozuntulardan əziyyət çəkən pasiyentlərin hüquqlarının müdafiəsinə həsr olunmuş müddəa “Psixiatriya yardımı və onun göstərilməsi zamanı vətəndaşların hüquqlarının təminatı haqqında” Azərbaycan Respublikası Qanununda kifayət qədər tam şəkildə əks olunmuşdur.

Konvensiyanın 9-cu maddəsində pasiyentin bu və ya digər tibbi müdaxilənin aparılması anında öz iradəsini ifadə etmək iqtidarı olmazsa, onun bu müdaxilə ilə əlaqədar əvvəlcədən söylədiyi fikirlərin nəzərə alınmasının zəruriliyindən danışılır. Həmin müddəanı “İnsanın orqan və (ya) toxumalarının transplantasiyası haqqında” Azərbaycan Respublikası Qanunu ilə müqayisə etmək olar. Burada göstərilir ki, əgər səhiyyə müəssisəsi meyildən orqanların və ya toxumaların çıxarılması anında həmin adamın sağlığında, yaxud onun ölümündən sonra qohumlarının və ya qanuni nümayəndəsinin orqan və toxumaların resipiyentə transplantasiyası üçün çıxarılmasına razılıq vermədikləri barədə məlumatlandırılmışdırsa, meyitin orqan və toxumalarının çıxarılmasına yol verilmir.

*Vahid Ömərov,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*



# “Heydər Əliyev siyasəti xoşbəxt gələcəyimizin qarantıdır”



***Dünən Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə YAP Masallı rayon təşkilatı aparatında “Heydər Əliyev siyasəti xoşbəxt gələcəyimizin qarantıdır” mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükut ilə yad edib.***

Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq bildirib ki, Ümummilli Liderin şah əsəri olan Azərbaycan Onun ideyaları əsasında günbəgün möhkəmlənir, inkişaf edir, beynəlxalq münasibətlər sistemində yeri və rolunu artırır, bir sözlə, Cənubi Qafqazın parlayan ulduzu kimi tanınaraq, inkişafın Azərbaycan modelinin mövcudluğunu dünyaya nümayiş etdirir: “Ulu Öndər Heydər Əliyev siyasətinin təntənəsi kimi dəyərləndirilən bu uğurlar dahi şəxsiyyətə sevgi və ehtiramın böyüklüyündə öz təsdiqini tapır. Dahi şəxsiyyətin 96-cı ildönümünün yüksək əhval-ruhiyyədə keçirilməsi də bu sevgi və ehtiramdan qaynaqlanır”.

S.Əliyev çıxışında vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Ulu Öndər Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır: “Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir”.

Tədbirdə partiya üzvləri Ülvi Rufullayev, Sübhan Şiriyev, Aytən Əliyeva, Duyğu Əliyeva və başqaları çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında əvəzsiz xidmətlərindən danışaraq, Ulu Öndərin Azərbaycanın dövlət müstəqilliyinin qorunub-saxlanılması, respublikanın sosial-iqtisadi inkişafı sahəsindəki misilsiz fəaliyyətindən bəhs ediblər.

***R.KAMALQIZI***

# Uğurların təməlində Dahi Şəxsiyyət Heydər Əliyevin düşünülmüş siyasəti dayanır



Dünən Xətai rayon icra hakimiyyətinin və YAP Xətai rayon təşkilatının birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirildi. Tədbir iştirakçıları öncə, Ümummilli Liderin təşkilatın foyesindəki büstü önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.



Sonra akt zalında davam edən tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri, millət vəkili Hüseynbala Mirələmov bildirib ki, Dahi Şəxsiyyət Heydər Əliyevin doğum gününün böyük sevinc hissi ilə qeyd olunması ölkəmizdə bir ənənəyə çevrilib: “Ümummilli Liderin doğum gününün belə əhval-ruhiyyə ilə qeyd olunması ümumilikdə xalqımızın dövlətə, dövlətçiliyimizə hörmət və ehtiramının bariz ifadələrindən biridir.”



Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Dahi Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünün hər birimizin həyatında önəmini xüsusi vurğulayıb: “Bu illər Azərbaycanın tarixinə harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur duya biləcəyi uğurları yazıb. Bu gün ölkəmiz həmin təməl üzərində daha da möhkəmlənir, qüdrətlənir, yeni-yeni hədəflərə doğru inamla addımlayır.” V.Rəhimzadə Dahi Öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrünü paralel şəkildə təhlil edərək bildirib ki, hər iki dövr Azərbaycanı inkişaf etdirmək, imzasını imzalar arasında görmək istəyinin nümayişi ilə xarakterizə olunub.

Heydər Əliyev adına liseyin direktoru Sevinc Orucova təhsili millətin gələcəyi kimi dəyərləndirən Ulu Öndər Heydər Əliyevin təhsilin inkişafı istiqamətində atdığı addımların miqyasının genişliyindən və hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam edirilməsindən geniş bəhs etdi. Bildirib ki, Azərbaycan Dahi Öndər Heydər Əliyev yolu ilə inamla irəliləyir, bu yol ölkəmizə daha möhtəşəm uğurlar vəd edir.

Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədri Səməd Seyidov çıxışında bildirib ki, bu gün əldə olunan uğurların təməlində Dahi Şəxsiyyət Heydər Əliyevin düşünülmüş siyasəti dayanır: “Son 15 ildə bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev fəlsəfəsinin, Azərbaycanı inkişafa aparan strategiyanın düsturunu dünyaya təqdim edir. Ölkəmizin iqtisadi uğurları davamlıdır. Daxili siyasətimizin davamı kimi dəyərləndirilən xarici siyasət uğurlarımızın miqyası genişdir.”

Çıxışlarda vurğulanıb ki, Dahi Öndər Heydər Əliyevin Azərbaycan dövlətinin, xalqının qarşısındakı xidmətlərinin miqyası genişdir, arxada qalan hər il bu xidmətlərdə yeni-yeni məqamların açıqlanmasına yardımçı olur. Məhz bu fonda Dahi Şəxsiyyət Heydər Əliyevin bu fikri daim xatırlanır: “Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!” Tədbirdə YAP sıralarına yeni daxil olanlara partiyanın üzvlük vəsiqəsi təqdim olunub.

Sonda Dahi Şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən film nümayiş etdirilib.

***ZÜMRÜD***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**